**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**Turabova Fəridə Urfan qızı**

# Ayzek Azimovun "Mən, robot" əsərində insan problemi

**060201-Filologiya-Ədəbiyyatşünaslıq (Amerika ədəbiyyatı)**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

Elmi rəhbər: *T.N. Mirzəzadə*

*filologiya üzrə fəlsəfə doktoru*

**BAKI – 2022**

# MÜNDƏRİCAT


**GİRİŞ** ........................................................................................................ 3

**I FƏSİL: Elmi fantastika janrının Amerika ədəbiyyatında təzahürü** ....................7

1.1. Elmi fantastika janrının tarixi..........................................................................7

1.2. Amerika ədəbiyyatında elmi fantastika janrının təşəkkülü və təkamülü...........23

**II FƏSİL: Ayzek Azimovun yaradıcılığında elmi fantastik proqnozlar**................38

2.1. Ayzek Azimovun əsərlərindəki fantastik elementlər.........................................38

2.2. "Mən, robot" kitabında texnika və insan toqquşmasının təsviri .......................52

**NƏTİCƏ**........................................................................................................65

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**.................................................................67

# GİRİŞ

Müasir Amerika ədəbiyyatının görkəmli nümayəndəsi, dünya ədəbiyyatında elmi fantastika yazarı kimi tanınan Ayzek Azimov (1920-1992) zəngin yaradıcılıq irsinə malikdir. Yazıçının yaradıcılığı çoxşaxəliliyi və bədii özünəməxsusluğu ilə seçilir. Ayzek Azimovun texniki inqilablar dövründə böyük səs-küyə səbəb olan romanları təkcə Amerika cəmiyyətinin deyil, bütün dünyanın müasir epoxada qarşılaşdığı insan və texnika toqquşmasını, roboto-texnika qanunlarını, gələcəklə bağlı futuristik ehtimalları ehtiva etməklə yanaşı, texnokratik erada insanın mahiyyəti və mövculuğu ilə bağlı mülahizələri təsvir edir.

**Mövzunun aktuallığı:** Respublikamızın siyasi uğurları nəticəsində dünyaya inteqrasiya yalnız iqtisadi və siyasi çərçivədə deyil, həmçinin elmi və mədəni mühitdə də ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Bu baxımdan, Qərb ədəbi mühitinin öyrənilməsi, Qərbli yazarların, ələxüsus da, ingilis dilli müəlliflərin yaradıcılığının araşdırılması prosesi son dövrlərdə daha da sürətlənmişdir. Qərbi öyrənmək meyli artdıqca, dil, din kimi millətlərarası problemlər tolerant mühitdə həll olunduqca Şərq və Qərb arasındakı sərhədlər demək olar ki, azalır. Bu nöqteyi nəzərdən Qərb dünyasına, ədəbi bədii fikrinə maraq getdikcə artır. Digər ölkələr kimi Amerika ədəbiyyatının da son dövrlərdə daha çox tədqiqat olunmasının səbəbi məhz budur.

Texnokratik erada insanın yeri, zaman-zaman insanın dostu və düşməni kimi qəbul edilən texnika, gələcəklə bağlı futuristik proqnozlar, başqa dünyalarla əlaqə və s. kimi mövzular elmi fantastika janrının əsasını təşkil edir. ABŞ kimi nəhəng ölkənin texnologiyaya münasibəti, texniki inqilaba dəstəyi elmi fantastika janrının niyə məhz bu ölkədə daha aktual olduğunun bədii ifadəsidir. Bu səbəbdən, elmi fantastika janrının çağdaş Amerika ədəbiyyatındakı izlərinin öyrənilməsi baxımından tədqiqat işi aktual hesab olunur.

Çağdaş dünyadakı müharibələr, qırğınlar, xəstəliklər ya bəşəriyyətin tamamilə məhv edilməsinə, ya da insanın fəaliyyətinin, dəyərinin azalmasına yönəldiyi açıq-aydın

məlumdur. Maddi, mənəvi və fiziki olaraq böhran yaşayan insanların yaşamaq uğrundakı mübarizəsi əsrlər boyu mövcud olmuşdur. Çağdaş insanın problemi isə bir qədər daha dərindir. Əvvəlki dövrlərdə insan insanla əvəz olunurdusa, müasir dövrdə insan texnika ilə əvəz edilmək qorxusu yaşayır. İnsan həyatını asanlaşdıran texnika, eyni zamanda onun dünyadakı yerini də əlindən almağa meyillidir. Süni intellektli robotlar, insan zəkasına bənzər zəkada hazırlanan son model robotlar bunu söyləməyə əsas verir. Vaxtilə elmi fantastik ədəbiyyatda bu kimi mövzular sadəcə təxəyyül məhsulu və ya gerçəkləşməsi müşkül proseslər kimi təsvir olunurdusa, son dövrlərdə bu kimi texniki inqilabı əks etdirən mövzularla yazıçılar sanki yaxın gələcəkdəki hadisələrdən öncədən xəbər verirlər. Qeyd edilən nüanslar, müasir Amerika ədəbiyyatında elmi fantastika janrının ustadlarından sayılan Ayzek Azimovun da yaradıcılığına xasdır. Müəllifin yaradıcılığının, xüsusilə də "Mən, robot" kitabının Azərbaycan ədəbiyyatşünaslığında məhz insan problemi çərçivəsində araşdırılmaması təqdim olunan araşdırmanın aktuallığını şərtləndirən əsas amillərdən biridir.

Məlum olduğu kimi, yaradıcılığında gələcəklə bağlı verdiyi proqnozlar gerçəkləşdiyinə görə zaman-zaman uzaqgörən hesab olunan Ayzek Azimov elmi fantastika janrının demək olar ki, bütün imkanlarından istifadə edərək texnoloji inqilabın bütün tərəflərini təsvir etməyə çalışır. Bəzən sadə, bəzən mürəkkəb üslubu ilə yazıçı texniki tərıqqinin insan həyatındakı yerini göstərməyə cəhd göstərir. Azimovun özünəməxsus yazı üslubunun araşdırılması, yaradıcılığında elmi fantastik elementlərin təhlili tədqiqatın aktuallığını göstərən digər amillərdən biridir.

Müəllifin "Mən, robot" kitabındakı hekayələrdəki insan faktorunun həm texnika ilə toqquşma kontekstində, həm də insan və robot dostluğu baxımından tədqiqi texniki inqilablar dövründə insanın qarşılaşa biləcəyi situasiyaların öncədən müəyyən edilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti:** Dissertasiya işinin obyekti elmi fantastika janrı, Amerika ədəbiyyatında elmi fantastika janrının təzahürü, Ayzek Azimovun yaradıcılığı

və “Mən, robot” kitabıdır. “Mən, robot” kitabında insan probleminin araşdırılması isə tədqiqat işinin predmetini təşkil edir.

**Mövzunun işlənmə dərəcəsi:** Qərb ədəbiyyatı, xüsusən də ABŞ ədəbiyyatı hər zaman ədəbiyyatşünaslığımız üçün maraqlı mənbə rolunu oynamışdır. Qərb ədəbi tendensiyalarının izlənilməsi ədəbiyyatımızın da bu aspektdə inkişafına şərait yaradır. Tədqiqata cəlb etdiyimiz Ayzek Azimovun yaradıcılığı da son dövrlərdə tədqiq olunan mövzulardandır. Yazıçının yaradıcıllığı həm məqalə, həm də dissertasiya çərçivəsində araşdırılmış, “Mən, robot” hekayələr toplusu, Seçilmiş əsərləri Azərbaycan dilinə tərcümə olunmuşdur. Bununla yanaşı, müəllifin yaradıcılığı haqqında yalnız icmal xarakterli məqalələrdə, tezislərdə və xarici ölkələr ədəbiyyatı ilə bağlı dərsliklərdə məlumata rast gəlmək mümkündür. İngilis ədəbi mühitində Kakela J., Spasic D., rus ədəbi mühitində isə Qennadeviç S., Andreyeviç T. kimi tədqiqatçılar A. Azimovun ədəbi fəaliyyətini araşdırmışdırlar.

**Tədqiqatın məqsəd və vəzifələri:** Ayzek Azimovun “Mən, robot” kitabında insan probleminin araşdırılması tədqiqat işinin əsas məqsədi hesab oluna bilər. Bu məqsədlə aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

− Elmi fantastika janrının mahiyyətinin müəyyən edilməsi və tarixinin araşdırılması;

− Elmi fantastika janrının əsas prinsiplərinin araşdırılması;

− Amerika ədəbiyyatında elmi fantastika janrına müraciət etmiş müəlliflərin yaradıcılıqlarına nəzər salınması;

− Ayzek Azimovun həyat və yaradıcılığını elmi fantastika janrı kontekstində araşdırmaq;

− Ayzek Azimovun “Mən, robot” kitabına daxil olan hekayələrindəki insan problemini təhlil etmək;

**Tədqiqatda istifadə olunan metodlar:** Tədqiqat işində bioqrafik, ümumidən xüsusiyə keçid və analitik metodundan istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi:** Təqdim olunan dissertasiya Azərbaycan ədəbiyyatşünaslığında Ayzek Azimovun “Mən, robot” hekayələr toplusunun araşdırılması istiqamətində ilk tədqiqat işidir. Müxtəlif dövrlərdə həm Qərb, həm Azərbaycan tədqiqatçıları tərəfindən Ayzek Azimovun yaradıcılığına müraciət olunsa da, yazıçının “Mən, robot” kitabının məhz insan problemi çərçivəsində araşdırılması tədqiqatın elmi yeniliyi hesab oluna bilər.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:** Təqdim olunan dissertasiyadan müasir ABŞ ədəbiyyatının tədrisi üçün nəzərdə tutulan metodik vəsaitlərin, tədris proqramlarının, dərs vəsaitlərinin hazırlanmasında, Amerika ədəbiyyatına, elmi fantastika janrına dair dərslərin tədirisində istifadə oluna bilər. Tədqiqat işindəki təhlil və ümumiləşdirmələr, əldə edilmiş nəticələr mövzunu araşdıracaq gələcək tədqiqatçılar, müəllimlər və tələbələr üçün mühüm mənbə rolunu oynaya bilər. Qeyd olunanlar tədqiqat işinin praktiki əhəmiyyətinin göstəriciləri hesab oluna bilər. Elmi fantastika janrının araşdırılması, Amerika ədəbiyyatında bu janrın təzahür prinsiplərinin öyrənilməsi tədqiqat işinin nəzəri əhəmiyyətinin göstəricisidir.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Dissertasiyanın mövzusuna uyğun olan “Ayzek Azimov elmi fantastika janrının görkəmli nümayəndəsi kimi” adlı məqalə ADU-nun 2022-ci ildə çap olunmuş “Gənc tədqiqatçıların elmi əsərləri” çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu:** Dissertasiya işi giriş, hər fəsil iki yarımfəsilə bölünməklə iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# ELMİ FANTASTİKA JANRININ AMERİKA ƏDƏBİYYATINDA TƏZAHÜRÜ

## 1.1. Elmi fantastika janrının tarixi

Çağdaş ədəbiyyatda aktual janrlardan hesab olunan fantastikanın tarixi miflərə, eposlara, dastanlara, əfsanələrə, nağıllara, bir sözlə folklor nümunələrinə əsaslanır. Folklor nümunələrindəki uçan xalça, sehirli güzgü və s. kimi mistik, qeyri-real elementlər və ya əsrarəngiz hadisə və varlıqların mövcudluğu müasir fantastikada əsas məxəz rolunu oynayır. Texnoerada daha çox tələb doğuran fantastika janrına gərçəklik payının olmaması və ya az olması, real həyatda mümkün olmayan, həqiqətdən uzaq, fövqəlreal və fantastik elementlər əsasında formalaşan gündəlik hadisələrin təsviri, macəralı sərgüzəştlər, ölümsüzlük arzusu, yeni dünyaların kəşfi prizmasından yanaşsaq bu janrın (həmçinin alt janrlarının) müasir oxucunun maraq dünyasını təəccüblü dərəcədə əhatə etdiyini açıq-aydın görə bilərik.

Elmi fantastika sözünü ilk dəfə Hüqo Qernbek "Əyləncəli hekayələr" jurnalının təqdimat yazısında işlətmişdir: *"Elmi fantastika dedikdə J. Vern, H. Uells, E. A. Ponun hekayələri kimi elmi həqiqət və ilahi romantizmin çulğalaşmasını nəzərdə tuturam. Bu fövqəladə hekayələr oxucudan sadəcə qeyri-adi istedad tələb etmir, həmçinin yeni biliklər öyrədir. Bugünün elmi fantatsikasında təsvir edilən yeni ideyaların sabah gerçəkləşməsi heç də mümkünsüz deyil. Gələcək nəsillər sadəcə ədəbiyyatda və fantastikada deyil, eyni zamanda təkamüldə də yeni cığırlar* açacaqlar" [18].

Reallıq sərhədlərinin pozulması, bəzən isə reallıqdan qaçış kimi əsaslandırılan fantastikanın XIX əsrin ikinci yarısından başlayaraq janr kimi əsası qoyulsa da, şifahi və yazılı ədəbiyyatda fantastika məhfumunun yaranma tarixçəsi qədim dövrlərə, daha dəqiq antik ədəbiyyata əsaslanır. Dilimizə yunan dilindən daxil olan fantastika (phantastike - təsəvvür, ya da xəyal etmək sənəti deməkdir – F.T. ) Qədim Yunan, Roma, Misir, Çin,

Hindistan, Ərəb və digər ölkələrin miflərində, dastanlarında, nağıllarında mövcud olmuş, hər keçən dövrün tələblərinə uyğun şəkildə formalaşmış, müstəqil ədəbi janr kimi inkişaf etməyə davam etmişdir.

Günümüzə qədər gəlib çatmış bir çox qədim ədəbi nümunələrdə müəyyən dərəcədə fantastik elementlər mövcuddur. Terminoloji baxımdan bəzi anlayışların adları bilinməsə də, qədim dövrdə müəlliflər bizim fantaziya, magik realizm, satira, sürrealizm adlandırdığımız ədəbi anlayışlardan daha rahat istifadə edirdilər. Çağdaş dövrün konsepsiyalarına, qəliblərinə bələd olmayan yazarlar təxəyyül imkanlarından geniş istifadə edir və müasir oxucunun da təəccüb və marağına səbəb olan nümunələr yaradırdılar. Məsələn, Roma müəllifi Apuleyin "Metamorfozlar" (təxminən eramızın 170-ci ilində yazılıb və "Qızıl eşşək" adı ilə də tanınır – F.T.) əsərində baş obraz Lusinin qara magiya ilə eşşəyə çevrilməsi təsvir olunub. Müxtəlif sərgüzəştlərdən keçən Lusi sonda ilahə İsis tərəfindən insan formasına qaytarılır. Bəzi tədqiqatçıların fikrincə, əsər fantastik elementləri ehtiva etməyinə baxmayaraq daha çox dini nöqteyi nəzərdən təhlilə cəlb olunmalıdır.

Antik ədəbiyyatda mövcud olan səyahət və macəra elementləri bütün dövrlərdə elmi fantastik ədəbiyyatın əsas mövzuları kimi şərh olunur. Homerin "Odisseya"sından (e.ə. VII əsr) başlayaraq yunan ədəbiyyatında fantastik səyahətlərin yüzlərlə nümunəsi yaradılmışdır. Bunlardan bəziləri səyyahların xatirələrinə və real (məsələn, Afrika, Hindistan və ya Atlantikaya səyahət kimi) təcrübələrə əsaslandığı halda, digərləri tamamilə fantastik məzmun daşıyırdı (ölülər diyarına və ya cənnətə səyahət və s.). Fantastikanın liberal tənqidçiləri bu cür fövqəlreal səyahətləri janrın ilk nümunələri kimi şərh edirlər.

Bəlkə də, Samasotlu Lukianın ilk elmi fantastika müəllifi kimi tanınması bu janrın elementlərinin daha çox epik növün roman janrında mövcud olduğuna dair mülahizənin yaranmasına səbəb olmuşdur. Lukiandan təxminən yüz il əvvəl də Aya səyahətlə bağlı romanlar yazılsa da, heç biri müasir dövrə qədər gəlib çatmadığından Lukian elmi

fantastika janrında roman yazan ilk müəllif hesab olunur. Bunu əsərdə həm elmi, həm spekulativ-fantastik diskursun mövcudluğu ilə də əlaqələndirmək mümkündür. Hər iki sahəyə marağı olan müəlliflərdən biri Yunanıstanın Boeotiya bölgəsindəki Keroneadan olan esseist və tarixçi Plutarx (Mestrius Plutarx, eramızın 45-c. 125) idi. Məhsuldar və geniş miqyaslı yazıçı, təxminən 227 kitabın müəllifidir və əsərlərinin çoxu dövrümüzə qədər gəlib çatmışdır. "Əxlaqi əsərlər" adlı topluya fəlsəfə, din, ritorika, biologiya, fizika və kosmologiyaya aid əsərlər daxildir.

Plutarxın "Ayın çevrəsindəki aşkar üz" əsəri təqribən eramızın 80-ci illərinə aiddir. Əsərin əsasını Ayın üzündə görünən işarələrlə bağlı müxtəlif şəxslərin müzakirəsi təşkil edir. Təkrarlanan nəzəriyyələr müasir elmi araşdırmaları əks etdirir: bir tərəfdən, Ayın güzgü rolunu oynayan alovlu, aydın bir maddədən ibarət olduğuna inam mövcuddur; digər tərəfdən, Ayın torpaqdan və ya torpaq səthindən ibarət olması, üzərindəki ləkələrin də günəş işığının kölgələrindən qaynaqlanması fikri mövcuddur.

Bundan sonrakı müzakirə Ayda məskunlaşma məsələsinə həsr olunub. Həmsöhbətlərdən biri Sulla Atlantikada qitədən olan bir qəriblə görüşdüyünü xatırlayır və ona cənnətdən danışır: insanlar üç elementlə (bədən, ağıl və ruh) doğulur, yerüstü ölüm yalnız bədəni məhv edir, bundan sonra onun zehni ölür, ikinci ölüm ruhu buraxana qədər o, yaşamaq üçün Aya köçür. *"Bir ölüm insanı üçdən ikiyə, digəri isə onu ikidən birə endirir... burada tanrının ruhu bədəndən tez və şiddətlə ayırdığı yerdə, Fersefon (Ayda) yavaş və yumşaq bir şəkildə ağlı və ruhu ayırır"* [30, s. 26].

Özlüyündə bu esxatoloji fantaziya bir çox tədqiqatçılar tərəfindən elmi fantastik əsər deyil, spekulyativ-dini əsər hesab olunur; lakin elmin və bədii ədəbiyyatın qarşı-qarşıya qoyulması spekulyativ şəkildə qurulmuş elmin sərhədləri ilə bütövlük yaradır. Elmi araşdırma və fantastik ekstrapolyasiyanın qarışıqlığı da əslində başa düşüləndir. Tədqiqatçı D. A. Russelin qeyd etdiyi kimi: *"Elmdən fantaziyaya keçidi yanlış şərh etmək olmaz. Astrofizika və ay mifologiyası ilə bağlı arqumentlərin əsaslı olub olmamasını aşkar etmək cəhdləri əsərdəki dialoqların tonuna və məqsədinə xələl gətirə bilər. Həm elmi*

*fikirlər, həm də dini motivli miflər eyni səviyyəli "kosmik" mövzulara aiddir. Onlar çılpaq faktlara əsaslanan ifadə deyil, təfərrüat və möhtəşəmlik tələb edirlər"* [34, s. 72]. Başqa sözlə, Plutarxın fantastikası elmi kəşfləri də ehtiva etdiyində elmi fantastika janrına aid edilir.

Yunan yazıçısı Antoniy Diogenin "Tule kənarındakı möcüzə" (Tule yunan sözüdür və şimal adalarını, daha dəqiq İrlandiya və Skandinaviyanı bildirmək üçün işlədilir – F.T.) əsərində Aya səyahət daha böyük romantik macəralar silsiləsinin yalnız kiçik bir hissəsi kimi təqdim olunur. Baş qəhrəmanlar Siciliyadan Tuleyə və Aya getmək üçün Arktika Dairəsinə qədər səyahət edirlər. Yerə qayıdan personajların yaşadıqları sərgüzəştlər və macəralar xoşbəxtliklə başa çatır.

Əsərdəki fantastik elementlər daha çox romantik mənşəlidir: "qəddar və axmaq" Keltlər tərəfindən əsir götürülən qəhrəmanlar rəngini dəyişən atlarda qaçırlar; İspaniyada insanların gecələr gözlərinin gördüyü, gündüzlər isə kor olduğu bir kənd var; əsərin qəhrəmanı Astraiosonun Ayın fazalarına uyğun genişlənən və büzülən gözləri var; insanlar ölür, lakin ölümləri vizual xarakter daşıyır və yenidən həyata qayıdırlar. Amma əsəri daha maraqlı edən bu romantikanın dövrün elmi ilə vəhdət təşkil etməsidir.

Qeyd olunan əsərlərdən başqa, Mesopotamiya mədəniyyətinə məxsus "Gilqamış dastanı", Qədim Misirə aid "Osiris və onun oğlu Horus" haqqında mifləri, Kalisfenin "Böyük İsgəndərin tarixi", Aristofanın "Quşlar" epik komediyası kimi əsərlərdə də fantastika janrından geniş istifadə olunduğunu məlumdur. Şərq mədəniyyətində xüsusi əhəmiyyətə malik şifahi xalq ədəbiyyatı nümunəsi sayılan Hindistan mifi "Pançatantra" ("Bidpai əfsanəsi") da bu janrın ilk nümunələrindən hesab oluna bilər. Maraqlıdır ki, bəşəriyyətin ilkin təxəyyül nümunəsi olan bu əsərlərin çoxu məzmun baxımından mistik səyahətlərlə, real olmayan dünyalar və aləmlərin tanrılar tərəfindən yaradılışı ilə zənginləşmiş və məhz bu səyahətlər və yaradılışlar əsnasında yaşanmış macəralar ilə əlaqəli olmuşdur.

Tarixi şərait dəyişdikcə fantastika janrı da modifikasiyalara məruz qalmış, orta əsrlər

dövründə gələcəyə səyahətlərlə, kosmik macəralarla, insanların real olmayan heyvanlara çevrilməsi ilə, heyrətamiz cəngavərliklərlə əvəz olunmuşdur. Buna misal olaraq Ser Tomas Melorinin “Kral Artur və onun dəyirmi masa cəngavərləri” romansını, həmçinin qədim ingilis eposu “Beovulf”u, eləcə də “Min bir gecə” əfsanələrini və ona daxil olan nağılların arasında yaddaşlara həkk olan “Əlibaba və qırx quldur”, “Sindibad”, “Sehrli lampa” kimi əfsanələri misal göstərmək olar.

Avropa mədəniyyətinin ən təntənəli çağı İntibah dövründə də fantastika janrı inkişaf etmişdir. Hər şeyin mərkəzində insan və həqiqətin durduğu, eyni zamanda orta əsrlərdən qalan dini inancların mövcud olmasına baxmayaraq intibah dövründə də əsərlərdə fantastik obrazlar yaradılmağa davam etdirilmiş və sanki mövcud durumu dəyişməyə çalışan, yeni və mükəmməl dünya arzulayan yazıçılar ideal bir dünya axtarışlarında olmuşdurlar. Dövrün fantastik nümunələrinə italyan şair Dante Aleqyerinin “İlahi Komediya” poeması, həmçinin ingilis ədəbiyyatının əsas siması Uilyam Şekspirin “Yay gecəsi yuxusu” komediyası, Tomas Morun “Utopiya” əsəri, Fransiz Bekonun “Yeni Atlantida” əsəri, fransız yazıçı Fransua Rablenin “Qarqantua və Pantaqruel” romanı, dahi ingilis yazıçısı, ispan ədəbiyyatının dəyərli dramaturqu və şairi Migel De Servantesin “Don Kixot” əsərini misal gətirə bilərik.

İtalyan şairi Dante Aleqyerinin “İlahi Komediya” əsəri dini və fantastik motivlərlə zəngin poema olaraq tanınır. Poemanın ilk hissəsində, rəvayətçi coğrafi baxımdan Yeri xatırladan Cəhənnəmə səyahət edir; ikincisi Purqatorio (cəhənnəm və cənnətin arasındakı yer – F.T.) Antipodlarda yüksək bir dağa səyahət kimi təsvir olunur; və üçüncü, Cənnət günəş sisteminə əsasən işıqlı bir yer kimi təsvir edilir. Poemanın hər misrasında dərin mənəvi və teoloji məqsəd var. Dərin mənada Dantenin kainatı maddi deyil, əksinə müqəddəsdir, hər nöqtədə Allahın lütfü ilə bağlıdır.

XVI-XVII əsrdə yazılan bir çox əsərlərdə fantastik motivlərə əsaslanan utopik cəmiyyət ideyası mövcud idi və məlum olduğu kimi, bu anlayış ingilis yazıçısı Tomas Morun “Utopiya” əsəri ilə əlaqədar idi. Tomas Mor ideal cəmiyyət modelinə əsaslandığı

bərabərlik, xoşbəxt insan ideyasını irəli sürdü. Utopik cəmiyyəti ilə mövcud İngiltərə cəmiyyətini müqayisə edən yazıçı 1535-ci ildə əvvəlcə London qəsrinə həbs olunmuş, daha sonra edam edilmişdir.

İtalyan yazıçı Tommazo Kampanellanın 1602-ci ildə yazdığı "Günəşin şəhəri" əsəri də T. Morun "utopiya"sına bənzəyir. Əsərdə Hoh adlı xeyirxah filosof-kralın idarə etdiyi, yeddi konsentrik dairəvi divardan tikilmiş ideal şəhər təsvir edilmişdir.

İngilis yazıçısı Frensis Bekonun "Yeni Atlantida" əsəri də məhz ideal cəmiyyət ideyasına əsaslanır. Əsəri yazarkən Platonun "Dövlət", "Timey və Kriti", Tomas Morun "Utopiya" əsərlərindən təsirlənmişdir. Dünyanın ucsuz-bucaqsız dənizlərində qeybolmuş Bensalim adasının kəşf edilməsi ilə başlayan əsərin ilk səhifələri bir il Peruda qaldıqdan sonra Çin və Yaponiyaya tərəf yola çıxan avropalı dənizçilərin açıq dənizlərdə təbiətə qarşı apardıqları mübarizəyə həsr olunmuşdur. Böyük fəlakətlərə məruz qalan, ərzaqları qurtaran dənizçilər Tanrıya dua edirlər və Tanrı dualarına cavab verir. Beləliklə daha əvvəl kəşf edilməmiş bir torpağa rast gəlirlər (Bensalim adasına) və ona tərəf üzməyə başlayırlar, burada utopik bir cəmiyyət yaratmağa cəhd edən insanlarla tanış olurlar. Məlum olur ki, adadakı dövlət ilahi gücə, mərhəmətə malik olduğu düşünülən Salomon adlı bir kral tərəfindən qurulmuşdur. Onun tək məqsədi xalqını xoşbəxt etməkdən ibarət idi. Salomonun evi təriqət və elm mərkəzidir. Bura Tanrının yaratdıqlarını öyrənməyə xidmət edən bir yerdir. Daha sonra müəllif adanın sakinlərinin elmin gücü ilə təbiəti necə öz faydaları üçün istifadə edə bildiklərini göstərməyə çalışır.

"Yeni Atlantida" sanki F. Bekonun cəmiyyəti ideallaşdırmağın yolunun elimdən keçdiyini söyləmək istədiyi bir vasitədir. Özündən əvvəlki utopiyalarda təsvir olunan sosial həyat, dini dəyişikliklər, elmin gücü kimi anlayışlara öz utopiyasında da yer vermişdir. Yazıçı hər şeydən əvvəl elmsizlik, savadsızlıqla mübarizə aparırdı. Göründüyü kimi, onun fəlsəfəsində modern cəmiyyət elmlə qurulmuş cəmiyyətdir.

Bundan başqa utopiyalar arasında ən çox tanınanlar bunlardır: Samuel Batlerin nowhere (heç bir yer) sözünə anaqram olaraq adlandırdığı "Erewhon" (1872) kitabı, F.

Rablenin Telem abbatlığı, Farabinin “İdeal Dövlət”i , Kampanellanın “Günəş Ölkəsi” (1623), Etien Kabetin “İkariaya Səyahət” (1839) əsəri və s.

Elmi fantastika janrında yadplanetlilərin təsvir olunduğu romanlarda adətən iki istiqamət mövcud olur: Bir istiqamət yadplanetlilərin bir qədər yerlilərə bənzədilməyə çalışıldığı, digəri isə tamamilə yadplanetlini anımsadacaq obrazın təsvir edildiyi. Elmi fantastika yazarları adətən ikinci istiqamətdə çətinlik yaşadıqlarını bildirirlər. XVII əsrin əvvəllərində qeyri-real varlıqların mövcudluğu ideyasına meyl etməyə başlamış XX əsrdə bu düşüncələr genişləndirilmişdir. Yadplanetli elmi fantastika yazarlarının insanlığın mənfi tərəflərini göstərmək üçün istifadə etdikləri ədəbi obrazdır. Bəşəri varlıqların öz aralarında həll edə bilmədikləri problemləri yadplanetli və insan arasındakı ziddiyyət kimi təqdim edən yazıçılar məhz bu səbəbdən əsərlərdə yerlilərlə telepatların savaşlarını təsvir etmiş, çox zaman yadplanetliləri bəşəriyyəti məhvə doğru aparan vahiməli varlıqlar kimi təqdim etmişdirlər. Başqa dünyalardakı həyat fikri qədim dövrlərdə mövcud olmuşdur. Epikür dünyadan başqa planetlərdəki həyatın sonsuzluğu barədə fikir irəli sürmüşdür. Şair Titus Lukretsi “De Rerum Natura” adlı didaktik şeirində bu fikri inkişaf etdirmiş, Plutarx Aydakı sakinlərlə bağlı mülahizələr söyləmiş, Samasotlu Lukian isə “Əsl tarix” əsərində aya səyahətin detallarından yazmışdır. Lakin Platon və Aristotel başqa dünyalarda həyat ola biləcəyi ehtimalına qarşı çıxmışdırlar.

Fantastikanı elmlə çulğalaşdıran yazıçılar Aydakı həyatı təsvir etmək üçün müxtəlif üsullardan istifadə etmişdirlər. 1634-cü ildə İoqann Kepler “Xəyal” (“Somnium”) adlı əsərində dahi bir insanı, 1638-ci ildə Fransis Qodvin “Aydakı adam” adlı romanında durnaların uçuşunu, 1827-ci ildə Cozef Etterli “Aya səyahət” əsərində Aya səyahət üçün cazibə qüvvəsinə bənzər bir qüvvənin mövcudluğunu təsvir etmişdir. Nəhayət, 1865-ci ildə Jül Vern “Dünyadan Aya” adlı əsərində fantastikadan uzaqlaşaraq texniki tərəqqiyə yönəlmişdir. Daha sonra Aşill Eyro “Veneraya səyahət” adlı əsərində səyahət hazırlıqlarından, müddətindən və Veneranın sakinlərindən bəhs etmişdir [6].

1957-ci ildə Aya göndərilən ilk raket Sputnikdən əvvəl 1869-cu ildə Edvard Xeyl

altmış metr uzunluğunda və dəmirdən hazırlanmış pilotlu raket fikrini "Kərpicdən Ay" [19] adlı kitabında istifadə etmişdir. Qalaktikada səyahət mövzusu ədəbi sferada yayıldıqca Mars planetinə də virtual səyahət Edqar Berrouz, Rey Bredberi kimi yazıçların marağına səbəb olmuşdur.

Avropada müasir elmi tərəqqidə ən mühüm addımlar XVII əsrdə atılmağa başlandı. Paskal, Dekart və Nyuton kimi alimlərin ixtiraları ilə yaddaqalan bu dövr M. Lomonosov, J. R. Dalembert, B. Franklinin elmə və texnologiyaya dəstəyi ilə də xatırlanır. XVIII əsrdə təkcə elmdə yox fəlsəfə və dində də yeniliklər mövcud idi. Elmi tərəqqi olaraq adlandırılan Avropa Renesansının başlanğıcı, başqa sözlə "müasir dövr"ün başlanğıcı müasir elmin başlanğıcı olaraq dəyərləndirilirdi.

İntibah dövrü yerini klassizm və daha sonra maarifçilik dövrlərinə verdikdə fantastika janrının güclü mövqeyi sanki bir qədər zəifləmişdi. Ancaq buna baxmayaraq tamamilə ədəbiyyatdan çıxmamış, Conatan Sviftin "Qulliverin səyahətləri", Volterin "Mikromegas", Horeys Ualpolun "Otranto qəsri" kimi əsərlərində müxtəlif formada öz əksini tapmışdır.

Tənqidçilər "Qulliverin səyahətləri"ni elmi fantastika janrına aid olub-olmaması ilə bağlı fikir ayrılığına malikdirlər. Brayan Oldissə görə, əsər "tam olaraq elmi fantastika sayılmır, satirik və yaxud əxlaqi xarakter daşıyır, lakin satira və elmi fərziyyə heç bir halda bir-birini istisna etmir [13, s. 81]. Şair Kinqsli Emis də Sviftin romanını "elmi fantastika" adlandırmağın doğru olmadığını düşünürdü. Onun fikrincə, ilk iki hissədə elm və texnologiyaya aid heç bir məqam yoxdur [35, s. 151]. Digər tədqiqatçılar isə üçüncü hissədə Laputa akademiyasındakı "təbii fəlsəfə" ideyası ilə, dördüncü hissədə atlar ölkəsində elmdən uzaq, hələ adi metalla tanış olmayan insanlar arasındakı absurd fərqi vurğulayırlar. Lakin onu da vurğulamaq lazımdır ki, Svift əsərdə detallı şəkildə elmi və fantastikanı çulğalaşdırmasa da, əsərin bütün hissələrində ironik tərzdə elm və elmsizlik problemini qabartmışdır. Məsələn, liliputlar çox yaxşı riyyaziyyatçıdırlar, onların ağıllı hökmdarının ağacı və digər ağır yükləri daşıya biləcək güclü mühərrikli maşınları var [40,

s. 61].

Fransız yazıçısı Volterin "Mikromeqas" əsəri də elmi fantastik elementlərin mövcud olduğu fəlsəfi nağıldır. Baş qəhrəman Mikromeqas, Sirius ulduzundan 8 liqa (5 km) hündürlüyündə olan nəhəng yadplanetlidir. O, qalaktikada səyahət edir və Saturn planetinin yerli sakini ilə dostlaşır. Əsər təkcə yadplanetli obrazların mövcudluğuna görə elmi fantastik əsər sayılmır, həmçinin bugünün elmi diskursları ilə əlaqəsi və uyğunluğu baxımından da bu janra aid edilir.

Qalaktikaya səyahət mövzusu ingilis şairi Tomas Qreyin "Yaşayış olan Ay" şeirində də mövcuddur. Şeirdə Ay peyki qəribə yadplanetlilərlə doldurur və imperator Britaniyanın Ayı müstəmləkəyə çevirəcəyi, qorxunc və zahirən kiborq (kibernetik orqanizm – F.T.) aborigenləri fəth edəcəyi vaxtları səbirsizliklə gözləyir.

XIX əsr romantizm cərəyanının davam etməsi, həmçinin realizm cərəyanının başlaması elmi texniki kəşflərin, kosmik, planetdaxili düşüncələrin və elmin məşhurlaşdığı, üstəlik maarifçilik dövründən başlayaraq xüsusi əhəmiyyət kəsb edən həqiqət məhfumunun mövcudluğu, dəhşət və qorxu kimi anlayışların bədii ədəbiyyatda da geniş yayılması elmi fantastika janrının sərhədlərinin genişlənməsinə və hətta bir çox yazıçılar üçün əvəz olunmaz ədəbi üsluba çevrilməsinə səbəb olmuşdur.

Tanınmış yazıçı Amadey Hofmanın "Fındıqqıran və siçanlar padşahı" əsərini, Edqar Alan Ponun bir çox qısa hekayələrini, elmi fantastika janrının çiçəklənmə dövrünün nümayəndəsi Jül Vernin bir çox romanlarını, Lyuis Kerolun 1865-ci ildə yazdığı "Alisa möcüzələr diyarında" romanını, Herbert Corc Uellsin "Zaman maşını" əsərini, eləcə də qotik üslubunun ən vacib əsərlərindən olan, B. Stoker tərəfindən yazılan "Drakula" ("Dracula") əsərini XIX əsr fantastik ədəbiyyatına nümunə göstərmək olar.

Görkəmli tənqidçi Darko Suvinin fikrincə, elmi fantastikanın futuristik bir fantastika kimi inkişafının başlanğıcı *"təxminən 1800-cü illərə, yadellilərin yerləşməsi ilə kosmos monopoliyasını itirdiyi və alternativ üfüqlər məkandan zamana dəyişdiyi"* [41] zamana təsadüf edir.

Lakin əsas mülahizə təkcə elmi fantastikanın tədricən futuristik fantastikaya çevrilməsi deyil, həm də əsrin əvvəllərində gələcəyə dair görüntülərin çoxunun zamanın sonuna və sonuncu canlı insanın mövcudluğuna edilən eyhamlarla əlaqəlidir.

Xüsusilə, gələcək apokalipsisin tutqun görüntüləri ingilis Romantik poeziyasına xas əsas elementlər idi. Şarlotta Smitin “Beachy Head” şeiri (ölümündən sonra 1806-cı ildə nəşr olunub) Britaniyanı xarabalığa çevrilmiş halda təqdim edir. Demək olar ki, apokalipsisdən sonrakı dünyanın təsvir olunduğu şeirdə sağ qalan insanlar sivilizasiyadan əvvəlki yaşayışa qayıtmağa və bir zamanların heyranedici tikililərinin yerinə dağılmış xarabalıqlarda məskunlaşmağa məcbur olurlar.

Bayronun dostu Tomas Kempbell (1777-1844) 1812-ci ildə yazdığı “Sonuncu Adam” şeirində yüz min il sonrakı gələcək dünyanı təsvir edir. Şeirin dindar obrazı bəyan edir ki, hətta bəşəriyyətin yox olmağı da onun “Allaha olan inamını sarsıda bilməz” [42]. Meri Şellinin “Son İnsan” (1826) romanı və Tomas Hudun “Sonuncu Adam” (1829) şeiri eyni alt janrın sonrakı nümunələridir.

Ancaq romantizm dövründəki bütün gələcək fantaziyalar bu apokaliptik “son insan” idiomu ilə məhdudlaşmırdı. Mümkün rasional gələcək dünyaları təsəvvür etmək üçün XVIII əsrin maarifçilik impulsu yazıçılara ilham verməkdə davam edirdi.

XVIII əsrin fövqəladə səyahət ənənələri XIX əsrin əvvəllərində də davam edirdi. Amerikalı fabulist Vaşinqton İrvinq “Dünyanın başlanğıcından Hollandiya hakimiyyətinin sonuna qədər Nyu-Yorkun tarixi” əsərində Amerikanın Avropanın müstəmləkəçiliyini Aylıların Yer kürəsini işğalı etməsi ilə ironik tərzdə eyniləşdirmişdir.

Ayın adamları “hippoqriflərə minmiş, keçilməz zirehlərlə müdafiə olunmuş, günəş şüaları ilə silahlanmış və ay daşlarını atmaq üçün nəhəng mühərriklərlə təchiz edilmişdilər. Onlar Yer kürəsini işğal edir, sakinlərə ümidsiz varlıq kimi yanaşırdılar” [22, s. 620].

V. İrvinqin olduqca cazibədar “aylılar”ı fərqli xüsusiyyətlərə malik idilər,

ədəbiyyatda ilk yaşıl dərili yadplanetlilər olan bu obrazların başları qoltuqlarının altında, quyruqları, çoxlu ayaqları və yalnız bir gözü var idi.

V. İrvinqdən sonra ingilis şairi Persi Bişi Şelli də “Kraliça Mab” əsərində alleqorik tərzdə günəş sistemi ətrafında səyahətə mövzusuna müraciət etmişdir.

XIX əsrdə elmi fantastika janrının inkişafina verdiyi töhfələrə görə alman yazıçısı E. T. A. Hofmanın adı xüsusilə qeyd olunmalıdır. Yazıçının 1816-cı ildə yazdığı “Qum adam” əsəri XVIII-XIX əsrlərdə məşhur olan saat mexanizmli robot barəsindədir. Bu dövrdə faktiki avtomatlar çox vaxt ədəbiyyatda insan cəmiyyətinin tənzimlənməsini komik və ya satirik şəkildə şərh etmək vasitəsi kimi istifadə olunurdu. Hofmanın qorxunc hekayəsi həssas və gənc Natanielin gözəl Olimpiaya aşiq olmasından bəhs edir; lakin o, hər kəsin bildiyi gerçəyi sona qədər görə bilmir - Olimpia əslində Doktor Koppelius tərəfindən yaradılmış bir robotdur.

A. Hoffmanın hekayəsi avstriyalı alim Ziqmund Freydin ən mühüm ədəbi tənqidi əsərlərindən biri olan “Əsrarəngiz”in (“Die Unheimlich”, 1919) mövzusu ilə səsləşir. Hoffmanın robotu qeyri-adidir, narahatedici şəkildə həm insana bənzəyir, həm də insan deyil; əsərdəki sərhədsiz texnoloji inqilab oxucunu “insanlıq” və “təbiət” anlayışlarına münasibətini yenidən qiymətləndirməyə məcbur edir. Bu baxımdan kitab tez-tez və təkidlə tədqiqatçılar tərəfindən elmi fantastikanın başlanğıc nöqtəsi adlandırılır [31, s. 112].

İngilis yazıçısı, qotik üslubun əsas nümayəndələrindən hesab olunan Meri Şelli dünya ədəbi fikir tarixində daha çox “Frankenşteyn” əsəri ilə tanınsa da yazıçının “Sonuncu adam” əsəri apokalipsis və fantastik proqnozlar baxımından xüsusilə diqqət çəkir. Əsərin birinci hissəsi monarxiyanın ləğvindən sonra, XXI əsrdə İngiltərədə cərəyan edir və prezident olmağa can atan Raymondun (Lord Bayrona bənzədilən obrazdır – F.T.) siyasi karyerasına əsaslanır. Raymondun Konstantinopolda vəba xəstəliyindən ölüməsi əsərin kuliminasiyasını təşkil edir, xəstəlik bütün dünyanı boşaldır və Romada yaşayan baş qəhrəman və təhkiyəçi Verney planetin sonuncu insanı olaraq qalır. Lakin onu da qeyd

etmək lazımdır ki, bu cür dünyəvi apokalipsis XVIII əsrin sonu və XIX əsrin əvvəllərindəki elmi fantastika janrında adi bir məram idi.

Məhsuldar ingilis yazıçısı Edvard Bulver-Litton (1803-1873) ədəbi fəaliyyətində mistik-elmi romanslara da yer vermişdir. Onun "Qəribə Hekayə" (1862) əsəri ruhaniliyi və ruhun ölümündən sonra sağ qalmasını psevdo-elmi terminlərlə rasionallaşdırır. Digər əsəri "Gələcək Yarış"da (1871) səyyah obraz bir sıra yollarla Homo sapiensdən üstün canlıların məskunlaşdığı yeraltı dünyaya gedib çıxır. Bu canlılar həyatlarını gücləndirmək üçün qeyri-müəyyən şəkildə hazırlanmış, lakin olduqca güclü bir enerjidən, elektrik və mənəvi qüvvə arasında olan "vril"dən istifadə edirlər. Elm və mistisizmin çulğalaşdığı roman, baş qəhrəmanın Yer üzünə qayıtması və özündənrazı yerliləri yeraltından gələcək fəlakətlərdən xəbərdar etməyə çalışması ilə sonlanır.

Fransız yazıçısı Jül Vern və ingilis yazıçısı H. Uells hər zaman elmi fantastika janrının iki ən məşhur yazıçısı olaraq xatırlanırlar. Həm yazdıqlarının fərdi mükəmməlliyi, həm də dövrlə əlaqəli səbəblərə görə, onların əsərləri elmi fantastika janrının artan mədəni üstünlüyünü möhkəmləndirdi. Tənqidçilər arasında onların nailiyyətlərinin təbiəti ilə bağlı vaxtaşırı müzakirələr mövcud olmuşdur. Bəzi tənqidçilər Vernin ümumiyyətlə elmi fantastika yazarı olduğunu inkar edirlər. Trevor Harris Verni fantastika yazıçısı adlandırmağın "yanıltıcı" olduğu fikrini irəli sürür [36, s. 109].

Endryu Martin ən yaxşı tədqiqatlarından biri olan "Peyğəmbərin maskası: Jül Vernin fövqəladə uydurmaları" [25] yazısında J. Verni sadəcə fantastika yazarı olaraq şərh etməyin doğru olmadığı qənaətinə gəlir.

Yazıçının digər bir tədqiqatçısı Sara Kapitanionun qeyd etdiyi kimi, kitablarındakı aramsız fırıldaqlara baxmayaraq, J. Vernin təsəvvürlərinin mərkəzində bir növ durğunluq var: *"yazıçı situasiyalarla oynayır və personajlar daha sonra mübahisəsiz bir şəkildə bizim bildiyimiz dəyişməyən dünyaya qayıdır. Obrazlar öz qeyri-adi təcrübələri nəticəsində heç bir əsaslı təkamül keçirmirlər... Romanların sonunda spekulyativ obyektlər və ecazkar maşınlar məhv olur, dünya rahatlıq verən nizama qayıdır və oxucu*

*qeyd-şərtsiz yazıçının mövqeyini qəbul edir”* [36, s. 70].

H. Uells, bəzi mənalarda J. Verndən daha az cəlbedici yazıçı olsa da, elmi fantastika janrını fərqli modellə təmin etdi. O, durğunluğun əvəzinə köklü dəyişikliyi dramatikləşdirməyə və əslində dəyişiklik ideologiyasına dərindən meyl etdiyinə görə janrın tarixində “inqilabçı” adlandırıla bilər. Tipik Uells təhkiyəsi fövqəladə olanın adiliyə çevrilməsinə əsaslanır. Başqa sözlə, Herbert Uells üçün dialektika Jül Vernin fantastikasının tərsinə çevrilmiş variantı kimi işləyirdi. Hər iki yazıçıda xarakter və hərəkət statik olsa da konseptual və təsvir elementləri daima yenilənirdi.

Herbert Uellsin 1897-ci ildə nəşr olunan “Dünyaların savaşı” romanında dünyanın yadplanetlilər tərəfindən işğal edilməsi mövzusuna müraciət edilmişdir. Daha sonra 1965-ci ildə Tomas Diş “Genosid” əsərində yadplanetlilərin Yer kürəsini talan etdiyini təsvir etmişdir. Bu kimi əsərlərin əksəriyyətində ya fərqli dünyalardan gələnlər yerliləri məğlub edirlər, ya da insanların şüurun ələ keçirərək Yerdə özlərinə həyat qururlar.

Elmi fantastik ədəbiyyatda ilk zamanda səyahət mövzusu H. Uellsin “Zaman maşını” əsərində işlənmişdir. 1895-ci ildə yazılmış əsərdə utopiya, distopiya, zamanda səyahət, tərəqqi kimi mövzulara yer verilmişdir.

Lakin elmi fantastik ədəbiyyatda zaman məfhumuna hər dəfə zaman maşını ideyası ilə müraciət olunmamış, yazıçıların fantastik xəyal gücü vasitəsilə zamanda səyahətin müxtəlif formaları qələmə alınmışdır. Ejen Muton 1883-cü ildə “Fantaziyada toplanmış hekayələr” adlı romanında bəlli şərtlər əsasında keçmişi görməyə yatdım edən “tarixskop” adlı cihazı təsvir etmişdir. Fransız yazıçı Moris Renar əvvəldən yaşanmışa anları canlandıran “luminite” adlı maye, şair Rejis Messak gələcəkdən xəbər verən “xronoskop” adlı cihaz təsvir etmişdir. Con Teyn 1934-cü ildə elektron tədqiqatçının uzaq keçmişdən, mezozoy erasında iki böyük sürüngən arasındakı savaşdan bəhs etdiyi “Alaqaranlıqdan əvvəl” romanını yazmışdır.

Zaman məfhumuna aid digər bir fantastik əsər Varqo Stettenin “Sıfır saat” [38] əsəridir. Əsərdəki obraz öləcəyi tarixi və saatı əvvəlcədən öyrənir və bunu gecikdirmək

üçün əlindən gələni edir. Həmçinin Filip Dikin də bu mövzuda yazdığı əsərində obraz gələcəyə səyahətində bəşəriyyətin bir böcək növü tərəfindən məhv edildiyini görür, geri dönərək insanları xəbərdar etmək istəyir, lakin geri qayıdarkən özü ilə həmin böcəklərin yumurtalarını gətirdiyinin fərqinə varmır. Layon Spreq 1939-cu ildə "Qaranlıq düşməsin deyə" [37] adlı kitabında XVI əsrin Roma imperatorluğuna gedən bir amerikalının texniki inkişafı sürətləndirərək krallıq qurmasından bəhs edir. Keçmişə səyahət mövzusu gələcəyə səyahət qədər həyəcanlı olmasa da elmi fantastik ədəbiyyatın əsas mövzularından biri olaraq qalmaqdadır. Stiven Kinq 2011-ci ildə yazdığı "22/11/63" adlı romanında baş obrazı Kennedinin sui qəsdinin qarşısını almaq üçün 1963-cü ilə "göndərir".

XX əsr elmi fantastika janrının mədəni dominantlığa yaxınlaşdığı dövrdür, çünki məhz bu əsrdə zamana qarşı texnoloji və mədəni dəyişiklik yüksək inkişaf səviyyəsinə çatmışdır. Məhz bu səbəbdən bu dövrdə elmi fantastika yazıçıların və oxucuların mövcud dəyişiklikləri anlatmağa və anlamağa çalışdıqları, bəlkə də, əsas ədəbi üsula çevrildi.

Fredrik Ceymson "Siyasi şüursuz" əsərində XIX əsrin sonlarında tək modernizmdən deyil, dialektik olaraq bir-biri ilə əlaqəli və bir-birini mütləq şərtləndirən iki fərqli ədəbi mədəniyyət strukturunun – *"yüksək mədəniyyət və ya elitar modernizm və kütləvi mədəniyyətdən"* [23, s. 207] - meydana çıxdığı mübahisəli situasiyadan bəhs edir.

Avanqardizm, sürrealizm, futurizm kimi cərəyanlarlayanaşı elm və texnikanın təkamülü, genişmiqyaslı ixtiralar və böyük dünya müharibələri ilə tarixə yazılan XX əsr fantastika janrının həm dəyişdiyi, həm də tamamilə təkmilləşdiyi bir dövr idi. Kosmik kəşflər, başqa planetlərdə həyat axtarışı, insanların robotlarla əvəz olunması, yeraltı səyahətlər, qeyri-real varlıqların mövcudluğu kimi fantastik elementlər bu dövrdə aktuallığını qoruyurdu. Bütün bunlarla yanaşı xaotik dünyanın təlatümlərindən çıxan insanlar arıq gələcəyi proqnozlaşdırmağa meyl edirdilər. Modernizm dövründə həmçinin bilavasitə folklora əsaslanan "fentezi" janrı müstəqil bir janr kimi yayılmağa başladı. Corc Maqdonaldın "Şahzadə və Süpürgəsaqqal" romanı ilə tanınan fentezi janrı XX əsrdə

xüsusi tələb görməyə başladığına görə C. R. R. Tolkin, R. Adams, L. Danseyni, K. S. Lyuis, E. R. Barrafs, H. P. Lavkraft, A. Merit kimi bir çox yazıçıların əsərlərinin əsas üslubuna çevrilmişdir.

1940-50-ci illərdə ədəbiyyatda “qızıl dövr”ünü yaşayan elmi fantastika janrı C. Kempellinin cəhdləri, R. Haynlayn, A. Klark, A. Azimov kimi “elmi fantastikanın böyük üçlüyü” adlandırılan yazıçıların sayəsində uşaq jurnallarının əsas mövcusu olmaqdan çox ədəbi janr kimi əhəmiyyət qazanmışdır. A. Azimov “Biz C.Kempellinin ədəbi nüsxələriyik” [24, s.12-13] demişdir.

A. Azimov, A. Klark, R. Haynlayn kimi sərt elmi fantastika yazarları əvvəlki üslublarında davam etsələr də janrın yeni yazıçıları daha fərqli yönlərə meyl edərək “yeni dalğa” adlandırılan bir mərhələyə keçmişdilər. H. P. Lavkarft, U. Berrouz və C. Keruakın təsiri ilə X. Ellison, Samuel Dileni, Frank Herbert kimi yazıçılar 1960-cı illərdən etibarən “yeni dalğa” adı altında fəaliyyət göstərmişdirlər.

Tənqidçilər 1960-70-ci illərdən bu və ya digər şəkildə avanqard, radikal və ya parçalanmış elmi fantastika yaratmaq üçün ənənəvi elmi fantastika konvensiyalarına qarşı reaksiya verən yazıçıların sərbəst mənsubiyyətini təsvir etmək üçün “yeni dalğa” terminindən istifadə edirlər. Damien Broderikin qeyd etdiyi kimi, yeni dalğa *“janrın aktuallığını itirməsinə qarşı reaksiya idi və heç vaxt ciddi ifadə kimi qəbul edilmədi, hətta janrın əsas nümayəndələri tərəfindən rədd edildi”* [14, s. 49].

Bu tarixdən etibarən elmi fantastika bir janr kimi müəyyən altjanrların daxilində mövcudluğunu davam etdirmişdir. Məsələn, Ursula K. L. Quin, sosial dəyişikliklərə əsaslanaraq əsərlərində feminist elmi fantastikaya müraciət etmiş, həm elmə, həm fantastikaya meyl edərək o zamana qədər bu janrda yazılan əsərlərdə rast gəlinməyən təcrübələri sınaqdan keçirmiş və uğru qazanmışdır.

Uilyam Qibsonun 1984-cü ildə nəşr olunan “Neyromant” [7] romanı kiberpank alt janrını inkişaf etdirmişdir. Kiberpank janrında adətən məhv olmuş təbiətin yerinə yeni texnoloji icadların keçdiyi təsvir olunur.

Elmi fantastika yazarı Bryus Betke "Əyləncəli elmi fantastik hekayələr" adlı jurnalda "Kiberpank" adlı qısa bir hekayə yazdıqdan sonra bu termin ədəbi aləmdə tanınmağa başladı. Etimoloji olaraq kibernetika və pank sözlərinin birləşməsindən yaranan bu anlayış insan biologiyasının maşın və texnika ilə gücləndirilməsinə, fərdlərin şəbəkələr vasitəsilə idarə edilə biləcəyi gələcək dünya modelinə əsaslanır.

Kiberpank janrında yazılan əsərlərin bir çoxunda mövcud sistemin dağıdılması, süni zəka və ya nəhəng şirkətlərdən insanların asılı hala salınması təsvir olunur. Elmi fantastika yazarı Lourens Persona görə, *"klassik kiberpankda obrazlar gündəlik həyatda texnoloji dəyişiklik, avtomatikləşdirilmiş, asanlıqla əl çatan bilik və diqqətçəkən dəyişikliklərlə əhatələnmiş distopik gələcəkdə cəmiyyətdən uzaqlaşmış, özgələşmiş və tənha insanlardır"* [43]. Bu fikir kiberpankın ümumi mənasını açıqlamağa da yardım edir: qaramsar, klostrofobik, məqsədsiz və mənfi məqsədlər üçün istifadə olunan texnika antiutopik bir mühit yaradır. Alfred Besterin "Mənim istiqamətim ulduzlar", Orsan Skot Kardın "Güzgüdəki xəritə" əsərləri kiberpank janrına aid edilə biləcək əsərlərdəndir.

Amerikalı elmi fantastika yazarı Kevin Uayne 1987-ci ildə Lokas jurnalına yazdığı bir məktubda ilk dəfə "stimpank" terminini işlətmişdir. Yazıçı Tim Pauersin "Anubis qapıları" [8], Ceyms Bleylokun "Homunculus", özünün "Cəhənnəm cihazları" və "Morlok gecəsi" əsərlərini bu altjanra aid etmişdir. Lakin daha əvvəllər də H. Uells, J. Vern, M. Şelli kimi yazıçılar əsərlərində bilmədən də olsa bu altjanrın elementlərinə yer vermişdirlər.

Kiberpank, stimpankla yanaşı çağdaş elmi fantastikanın sosial proseslərə əsaslanan elmi fantastika, liberal elmi fantastika, biopank, apokalipsis və postapokalipsis kimi digər altjanrları da mövcuddur. Həmçinin intibah "utopiya"sının əksi olan distopiya janrı da son dövrlərdə ədəbiyyatın əsas istiqamətlərindən birinə çevrilib. Distopik əsərlərdə adətən dünyanın yox olması, gələcəkdə mümkün ola biləcək bəşəri fəlakətlər, insanların və ya bütün canlıların texnika ilə əvəzlənməsi kimi mövzulara müraciət olunur. Distopiya elmin, texnologiyanın, siyasətin səhv yönləndirilməsinin səbəb ola biləcəyi ehtimal

olunan problemləri öncədən təqdim edərək sanki futuristik proqnozlar verir.

İlk dəfə 1868-ci ildə Con Stüart Mil tərəfindən İngilis Parlamentində işlədilən distopiya sözü "gözəl olmayan yer" mənasını ifadə edirdi. Ədəbi mühitdə antiutopiya kimi tanınan bu janrda yazılan əsərlərdə texnikanın əsirinə çevrilmiş cəmiyyətlərdə insan fəlakətlərindən bəhs olunur.

Rey Bredberinin "Farenheit 451", Herbert Uellsin "Zaman maşını", Ursula Quinin "Mülksüzlər", Yevgeni Zamyatinin "Biz", Kurt Vonnequtun "Avtomatik piano" kimi əsərləri texnikanın, elmin, siyasətin səhv yönləndirilməsinin səbəb olduğu fəlakətləri göstərməklə gələcəyi təhlil mövzusunda insana yol göstərir.

Müasir dövrə bəşəriyyəti öz təsirində saxlayan elmi-texniki tərəqqi insanın ruhuna, təfəkkürünə, və mənəviyyatına hopmağa başladığından elmi fantastika janrına müraciət edən yazıçıların hər birinin təxəyyül imkanları zaman və məkan uyğunsuzluğunu adi formada təqdim etməyə imkan vermişdir. Texnoerada özgələşən fərdlər xəyali də olsa yeni və fərqli dünyalar axtarırlar. Məhz bu səbədən, çağdaş dövrün fəlsəfi-estetik cərəyanları, janrları ədəbiyyatla bərabər incəsənəti, mədəniyyəti və daha dəqiq ictimai şüuru əhatə edir.

### 1.2. Amerika ədəbiyyatında elmi fantastika janrının təşəkkülü və təkamülü

Ədəbiyyatda ən gənc janrlardan hesab edilən elmi fantastika bilavasitə fantastika janrının ənənələri əsasında formalaşmışdır. Elmi fantastik əsərlərdə hadisələr gözlənilməz məqamlarda, situasiyalarda baş verir. Bu növ əsərlərdə fantastik motiv, ünsür və elementlər problemi daha geniş zaman və məkan kontekstində götürməyə imkan verir. Ona görə də elmi fantastik əsərlərdə qabardılan problemlər bir millətin, dövlətin problemləri çərçivəsinə sığışmır, bəşəri və qlobal xarakter daşıyır [5, s. 10].

Amerikalı yazar Rey Duqlas Bredberi 1974-cü ildə Edmund Ferrelin kitabına yazdığı ön sözdə elmi fantastika janrı haqqında bunları qeyd etmişdir: *"Elmi fantastika insanın*

*xəyal gücünü, cəhdlərini, fikrini, texnoloji inkişafını, yuxularını ehtiva edən yeganə sahədir. Elmi fantastika yazarları adi insanlardan bir qədər daha irəli gedib hadisələrin necə olduğunu deyil, necə ola biləcəyini təsvir edir"* [17].

Yazıçının fikrincə, keçmişdə Platonun qurmaq istədiyi cəmiyyəti müasir elmi fantastika öz prizmasına və çağdaş dünyanın tələblərinə uyğun formada qurur. Buradan belə nəticəyə gəlmək olar ki, dünyada elmi fantastikanın problem dairəsinə daxil olmayan demək olar ki, bir mövzu yoxdur. Bugün qarşılaşdığımız elmi fantastika texnikadan çox elmlə maraqlanır. Məhz bu səbəbdəndir ki, müasir elmi fantastika texnika yönümlü olduğu qədər gələcəkdəki davranış kodeksləri ilə də maraqlanır. Yazıçılar elm adamlarından əvvəl bəzi təxminlər irəli sürürlər, təkcə texniki tərəqqini deyil, həmçinin insanın yeni texnikaya necə münasibət bəsləyəcəyini, necə istifadə edəcəyini, insanın dünyasında texnikanın yerini, və nəhayət hansının digərini məhv edəcəyini əvvəlcədən güman etməyə çalışırlar.

Darko Suvin 1979-cu ildə yazdığı "Elmi fantastikanın metamorfozları: ədəbi janrın poetik tarixi üzərinə" adlı əsərində elmi fantastika janrına fərqli rakursdan müraciət etmişdir. Latın dilində "yeni" mənasını ifadə edən "novum" termini ilə tədqiqatçı elmi fantastika janrı daxildə məntiqi düşüncəmizə zidd olmayan, elmi izahı olan yeniliklərin mövcudluğunu əsaslandırmışdır.

Ədəbiyyat üzrə professor Patrik Perrinde *"Elmi fantastika yazarı yeni və bilinməyən elmi kəşflər axtarır və sadəcə elmi təkamülü oxucuya ötürmək üçün fantastikadan istifadə edir"* [26, s.15.] fikrini müdafiə edirdi.

Lakin zaman keçdikcə janrın ifadəsi və məna yükü də bir qədər dəyişməyə, dövrün nəbzini tutmağa başlamışdır. 2001-ci ildə Artur Klark hekayələr toplusunun ön sözündə *"Elmi fantastik ədəbiyyat gerçəkləşməyini istəməyəcəyiniz, ancaq ola biləcək hadisələrə əsaslanır. Fantastika isə gerçəkləşməyini bəlkə də istəyəcəyiniz amma gerçəkləşməyən bir şeydir."* [9] fikirlərini yazmışdır.

Elmi fantastik ədəbiyyatın fərqli regionda və fərqli dövrdə formalaşmağına

baxmayaraq janrın əsas nümunələri XX əsr ABŞ ədəbiyyatına məxsusdur. Sürətli texnoloji təkamül və ABŞ-ın elmi, iqtisadi və hərbi sahədə yüksəlməsi nəticəsində Amerika elmi fantastika ədəbiyyatı dünya miqyasında diskursda və ictimai şüurda üstünlük təşkil etməyə başlamışdır.

Amerika ədəbiyyatında elmi fantastika janrının flaqmanlarından olan Rey Bredberinin fikrincə, amerikalılar elmi fantastika sahəsində gözləniləndən yaxşı, düşünüləndən isə pisdirlər. Yazıçının mülahizəsini belə şərh edə bilərik ki, Amerika ədəbi prosesə digər dünya xalqlarına nisbətən gec qoşulduğundan janrın bu ədəbiyyatda təzahürü üçün gözləntilər elə də ürək açan deyildi, lakin E. Ponun yaradıcılığından başlayaraq müasir dövrə qədər uzun yol keçmiş amerikan elmi fantastika tarixinə nəzər saldıqda məlum olur ki, janrın ən gözəl nümunələri məhz bu ədəbiyyatın bətnində formalaşmışdır.

ABŞ romantizminin əsas simalarından olan E. A. Po eyni zamanda qısa hekayə yazarı kimi də dünya ədəbiyyatında iz qoymuşdur. Dupin obrazının simasında dedektiv ədəbiyyatın mükəmməl nümunəsini yaradan yazıçı, sərhədsiz qorxu və dəhşətləri təsvir etdiyi “Qara pişik”, “Xəbərçi ürək” kimi hekayələrində yüksək yaradıcılıq potensialını ortaya qoymaqla yanaşı, bir çox əsərlərində ən cəsarətli fantastik elementləri, mistik nüansları qabartmağa çalışmışdır. Elmi fantastika tədqiqatçılarının əksəriyyəti E. Ponu Amerika ədəbiyyatında elmi fantastika janrının ilk yazarı adlandırırlar. Yazıçının “Mono ilə Una arasındakı görüş”, “Hans Pfaal adlı birinin əsrarəngiz sərgüzəştləri”, “Eiros ilə Şarmionun söhbəti” kimi əsərləri tədqiqatçılara bu baxımdan istiqamət vermişdir. Həmçinin bu sıraya, elmi fantastikada çox istifadə olunan zaman axınının dəyişməsi mövzusuna həsr olunmuş “M. Avqust Beloenin xatirələri” adlı hekayı də daxil edilə bilər.

Bundan başqa, Edqar Ponun daha sonralar tapılmış bir məktubunda yazıçı dostuna hər zaman gələcək xəyalı ilə yaşadığını yazmışdır. Lakin yazıçını elmi fantastika janrında yazıb yaratdığının əsas sübutu kimi tamamlaya bilmədiyi yeganə əsəri olan “Nantuketli Artur Qordon Pimin hekayəsi” romanı göstərilir. Romanın baş qəhrəmanının dəniz

səyahəti zamanı Norveç körfəzində böyük girdaba batmağı və ən sonda bir nəhəngin ağappaq üzünü gördüyü səhnəsi mistik və fantastik motvlərlə zəngindir. Edqar allan Ponun bu əsərindən təsirlənən Jül Vern daha sonra “Buzların Sfinksi” adlı əsər yazmışdır. Bundan başqa, Jül Vernin bilinməyən dünyalara səyahət marağını da E. Poya borclu olduğu iddia olunur. Elmi fantastika yazarı Herbert Uells isə bildirmişdir ki, Ponun romanının qəhrəmanı Pim elmi fantastik ədəbiyyatda yüz ilə əvvəl cənub qütbünə səyahət zamanı nələrin xəyal edilə biləcəyini göstərən əsas obrazlardan hesab olunur.

Robert Anson Haynlayn (1907-1988) ümumilikdə elmi fantastika janrının üç əsas yazarlarından biri kimi tanınır. Haynlayn əsərləri ən çox satılan elmi-fantast nasirlərdən olmuş və A. Azimov, A. Klark ilə birgə ingilis dilli elmi fantastik janrın “nəhəngləri” hesab edilmişdir. Yazıçı əsərlərində pozitiv elmlərdəki dəqiq informasiyalardan istifadə edərək elmi fantastikanı ciddi ədəbi janrı kimi tanıtmışdır. O, həmçinin 1940-cı ildən “The Saturday Evening Post” kimi ciddi məqalələr çap edən jurnalda elmi fantastik hekayələr çap etdirməyə müvəffəq olan ilk yazıçıdır. Onun qələmə aldığı elmi fantastik əsərlərdə tez0tez istifadə olunan sosial mövzular bunlardır: dinin mədəniyyət və dövlətə təsiri, fərdi azadlığın və özünə inamın əhəmiyyəti, ənənəvi cəmiyyət qaydalarına əməl etməyənlərə qarşı cəmiyyətin basqısı, fərdlərin cəmiyyətə qarşı öhdəlikləri. Bundan başqa, qalaktikaya səyahətin mədəni təkamülə təsiri, qyer-adi ailəvi münasibətlər də Haynlaynın əsərlərinin mövzularına aiddir. Yazıçının soyuq müharibə illərində yazdığı əsərləri həddən artıq millətçi, hətta faşizm yönümlü adlandıranlar da mövcuddur. Bu fikir daha çox müəllifin “Ulduz desantı” (“Starship Troopers”) əsəri çap olunduqdan sonra ortaya çıxmışdır. Romanda interaktiv silahları olan amerikan əsgəri yadplanetlilərlə savaşır və qalib gəlir. Bununla yazıçı, ağlı və gələcəkdəki təkmilləşdirilmiş silahlar vasitəsilə Amerika əsgərinin dünyanın ən güclü əsgəri olacağı ideyasını qeyd edir. Romanda bilərəkdən siyasi mövzulara toxunulmuş və hətta dəyişiklik edilmədən əsərin filmi də çəkilmişdir.

Kosmik elmlərin təbliğatçısı Robert Haynlayn dövrünü qabaqlayan ideyalar müəllifi olduğuna görə, onun əsərlərinə oxucular “gələcəyin kitabı” kimi yanaşırlar.

Yazıçının əsərləri dəfələrlə “Hüqo” mükafatına layiq görülmüşdür. “Yad ölkədə yad adam”, “İkili ulduz”, “Ulduz desantı”, “Ay sərt sahibədir” kimi əsərlərinə görə dörd dəfə bu mükafatı almışdır. Bir neçə dəfə “Nebula” mükafatı laureatı olmuş yazıçıya 1974-cü ildə “Elmi-fantast Yazıçıların Qrand Masteri” adı verilmişdir.

Yazıçının bədii-ədəbi irsi üslub və mövzu baxımından zəngin və çoxşaxəli olmuşdur. Yaradıcılığının ən qaynar dövründə fentezi janrına müraciət edən Haynlayn bu janrda hekayələr yazmış, lakin yeganə “əsl” fentezi romanı 1963-cu ildə yazdığı “Şöhrət yolu” olmuşdur.

1970-ci ildən sonra Haynlayn bir sıra ağır xəstəliklər keçirir, bir müddət heç bir əsər yaza bilmir. Bir qədər fasilədən sonra, 1973-cü ildə “Sevgi üçün kifayət qədər vaxt var və ya Lazarus Lonqun həyatı” əsərini yazır.

Arada fasilələrlə 1987-ci ilə qədər “Fraydi”, “Peşə: Ədliyyə komediyası”, “Qürubdan o tərəfə üzmək”, “Divarlardan keçən pişik”, “Heyvanın sayı”, “Ulduz müharbələri” əsərlərini yazan yazıçı 1988-ci il mayın 8-ində dünyasını dəyişir.

Digər bir amerikalı fantastika yazarı isə Andre Norton olmuşdur. 1912-ci ildə ABŞ-ın Ohayo ştatının Klivlend şəhərində anadan olan gələcək yazıçı bacısından 17 il sonra doğulan bir uşaq olduğu üçün böyük bacısı və ya yaşıdları ilə heç vaxt yaxın münasibət qurmurdu. Alisanın inkişafına ən çox təsir edən gələcəkdə onun səhvlərini düzəldəcək və tənqidçi rolunda olacaq anası idi. Norton ailəsində ən böyük maraq kitablara idi, buna əyani sübut isə onların ictimai kitabxanaya həftəlik ziyarəti idi. Alisa oxumağı öyrənməzdən öncə, anası ev işləri ilə paralel ona kitablar oxuyur, şerlər söyləyirdi. Hətta məktəbdə alınan yaxşı qiymətlər Rut Plamli Tompsonun əsərlərinin nüsxələri ilə mükafatlandırılırdı. Xanım Nortonun bütün gələcək həyatına təsir edən valideynlərinin bu ehtirası idi.

Alisa Klivlenddəki Kollinqvud Liseyində Miss Silviya Koçranın dəstəyi ilə yazmağa başladı. O, “Kollinqvud işığı” adlı məktəb qəzetinin ədəbi səhifəsinin redaktoru oldu. Ona düşən vəzifə qısa hekayələr yazmaq idi. Elə məktəbdə ikən, onun ilk kitabı

“Ralestone luck” ərsəyə gəldi. 1934-cü ildə qanuni şəkildə adını Andre Norton (Andre Alice Norton) olaraq dəyişdirən yazıçının kitablarının əsasən oğlanlar tərəfindən oxunulması gözlənilirdi. Bu səbəbdən o adına kişi adı əlavə etməklə kitab nəşrini artırmaq niyyətində idi.

Orta məktəbi bitirdikdən sonra, 1930-31-ci illər arası tarix müəllimi olmaq niyyətilə Flora Stone Mather Kollecində təhsilini davam etdirdi. Sonra ölkədəki iqtisadi böhran səbəbindən evdar qadın olmağa məcbur oldu. Klivlend Kolleci tərəfindən təklif olunan jurnalistika və yazıçılıq üzrə axşam dərslərinə qatıldı. 1932-də işləmək üçün Klivlend kitabxanasına daxil oldu. Növbəti 18 ilini Klivlenddəki Notinqam kitabxanasının uşaq şöbəsində kitabxana köməkçisi olaraq keçirtdi. 1940-41-ci illərdə Konqres kitabxanasının xarici vətəndaşlarla bağlı layihəsində xüsusi kitabxanaçı kimi işləmiş, II Dünya müharibəsinin başlaması ilə əlaqədar iş yeri bağlanmışdır. Daha sonra tamamilə işdən imtina edən Norton özünü yazmağa həsr etdi.

Andre Norton 14 mart 2005-ci ildə Tennessi ştatının Merfrisboro şəhərindəki evində dünyasını dəyişmişdi. “Kosmosda Sarqos”, “Günəş kraliçası” kosmik gəmi barədə yazılan elmi fantastik romanlar silsiləsindən olan ilk əsərləridir. İlk romanı uzaq gələcəkdə nüvə müharibəsi və kosmik müstəmləkəçilikdən sonrakı dövrdə baş verir. Baş qəhrəmanlar gəmidə azad ticarətçilər komandasının üzvləridir. Onlar elə bir situasiyaya düşürlər ki, gəmidə olan bütün ekipajın taleyi onların cəsarət və bacarıqlı olmaqlarından asılıdır. A.Nortonun başqa əsərlərində olduğu kimi, bu kitabda da kosmosdakı “Predteç” sivilizasiyası mühüm rol oynayır. Bu sivilizasiya dünyada özündən sonra dəhşətli müharibə izləri qoymuşdur.

Henri Kattner Amerika ədəbiyyatında elmi fantastika, fentezi və qorxu janrında yazıb yaratmış müəlliflərdəndir. Yazıçı 1915-ci ildə Kaliforniyada anadan olmuşdur. Atasının ölümündən sonra yoxsulluq içərisində yaşayan Henri Kattner dayısının ədəbiyyat qəzaetində işləməyə başlayır və daha sonra 1936-cı ildə Los Anclesdə ilk hekayəsi olan “Qəbirstanlıq yarasaları”nın da yer aldığı “Qəribə nağıllar” toplusunu satışa çıxarır.

“Qəbirstanlıq yarasaları” yazıçının qorxulu əsəri hesab olunur. Belə ki, Massaçuset ştatının Salem şəhərində qəbirstanlığa baxan “qoca Mason” qazancını azaldan qeyri-adi dərəcədə böyük siçovullarla koloniya təşkil etmək niyyətindədir. Yeraltı gəmiricilər yeni dəfn edilmiş cəsədləri tabutların dəliklərindən girərək çıxarmağa çalışırlar. Bir gecə Mason siçovulların cəsədi necə apardığnı görmək üçün tunelə girir, lakin dar və qaranlıq yerdən qorxub geri qayıtmaq istəyəndə zombi kimi bir varlıqla qarşılaşır. Ondan xilas olmaq üçün boş olan tabutlardan birinin içərisinə girir, lakin siçovullar gələnə qədər orada havasızlıqdan ölür.

Yazıçı ədəbi nəsri ilə məşhurlaşmış və hər zaman həyat yoldaşı K. L. Mur ilə əməkdaşlıq etmişdir. Onlar “Sevgi sənəti çevrəsi” adlı ədəbi birlikdə tanış olmuşdular. 1940-50-ci illərdə daha sıx davam edən əməkdaşlıqları nəticəsində yazdıqları əsərləri müxtəlif təxəllüslərlə çap edirdilər. Hətta onların tədqiqatçılarının fikrincə, müəlliflərin əsərlərini oxuyanda hansı fikrin kimə mənsub olduğunu fərqləndirmək çox çətindir. Sonralar “Robotların quyruğu yoxdur” adlandırılan “Qalaqher hekayələri” toplusunu isə həyat yoldaşı H. Kattnerin təkbaşına qələmə aldığını qeyd etmişdir.

Marion Zimmer Bredley Henri Kattnerə ən çox təsir edən yazıçılardan olmuşdur. Hətta onun “Qanlı günəş” əsəri H. Kattnerə ithaf olunmuşdur. Həmçinin Kattnerin dostu Riçard Mateson 1954-cü ildə yazdığı “Mən əfsanəyəm” əsərini də yazıçıya həsr etmişdir. Müəllifin kitabının yeni tərtibatına ön söz yazan Rey Bredberi məcazi mənada demişdir ki, “mənim ilk hekayəmin başlanğıcdakı 300 sözünü H. Kattner yazmışdır” [20].

“Miflərdən on nağıl” H. Kattnerin “Sevgi sənəti çevrəsi”ndə nəşr olunan “Ksulhu mifləri” toplusuna daxil idi. “Kralitzin sirri”, “Ruhları yeyən”, “Salem qorxusu”, “Drum-Avestanın zarafatı”, “Daqonun yumurtası”, “İstilaçılar”, “Qurbağa”, “Qorxunun zəngləri” də həmin silsiləyə daxil olan əsərlərdir.

Digər bir amerikalı fantastika yazarı, elmi-fantastika janrında məşhur redaktor və tənqidçi Deymon Frensis Nayt olmuşdur. 1922-də Oreqon ştatının Beyker şəhərində anadan olan olan gələcək yazıçı məktəbi bitirdikdən sonra Seylem şəhərindəki (Oreqon

ştatı) WPA incəsənət mərkəzinə müraciət edir, ancaq ədəbiyyatı öyrənmək həvəsindən oranı yarımçıq qoyur. Yeniyetmə dövründə Deymon 1941-ci ildə Oreqondan Nyu-Yorka gələrək F. Pol, A. Əzimov, S. Kornblat və digər yazıçıların daxil olduğu “Futurianlar” qrupunun üzvü olur. Daha sonra xatirələrində yazıçı qeyd edirdi ki, futurianlar: bu günün ən yaxşı elmi-fantastik yazıçı və redaktorların bəhrələndiyi 30-cu illərin elmi-fantastlar ailəsi idi.

Deymonun ilk nəşri Ceyms Bliş ilə yazdığı “Pələng yürüşü” (“Tiger Ride”) hekayəsidir. 1941-ci ildə hekayəsini nəşr etdirın yazıçı 1943-cü ildən məşhur nəşriyyat jurnallarında peşəkarlıqla işləməyə başlayır və 50-ci illərdən sonra “Worlds Beyond” jurnalının redaktoru olur.

1950-ci illərdən sonra müəllif bəşəriyyətin inkişafına, yad sivilizasiyalarla əlaqələrə həsr olunmuş maraqlı hekayələr toplusu nəşr etdirir. Topluya “İnsana qayğı” (1950, Retro-Hüqo mükafatı-1951), “Keçmişlə yaşamayın”, “Yunqa” (1951), “Analoqlar”, “Hər yerə bilet”, “Sahil avarası” (1952), “Babil II” (1953), “İki nəfər artıq” (1953), “Qızıl qayda”, “Anaxron”, “Sürpriz doğuş” (1954), “Rəhmlilər ölkəsi” (1955) kimi əsərlər daxil idi. “Babil II”də və “İki nəfər artıq” hekayəsində yadplanetlilərin yerdəkilərlə təması, “simbiot” adlandırılan yadplanetli orqanizmi barədə təsəvvürlər verilmiş, “Rəhmlilər ölkəsi”ndəki cəmiyyətdə insan insanların cinayətləri yalnızlıq cəzalandırıldığı təsvir olunmuşdur.

1955-də Deymon ilk elmi fantastik romanını “Cəhənnəmin yolu” (“Hell’s Pavement”) nəşr etdirir. Bu romanla o, antiutopiya mövzusunda bir sıra əsərlər silsiləsinə başlayır. Bu arada yazıçı məhsuldar yazıçılıq fəaliyyəti ilə yanaşı ədəbi tənqidə meyl edir. O, bədii ədəbiyyatla müqayisədə elmi-fantastikanın dəyərini ədəbi tənqiddə yüksəldən ilk yazıçı olub. Yazıçı 1956-cı ildə “Möcüzələr axtarışında” (“In search of Wonder”) adlı tənqidi məqalələr toplusuna görə Hüqo mükafatına layiq görülmüşdür. Eyni ildə C. Bliş və C. Merill ilə birgə elmi-fantastik yazarların konfransını təşkil etmiş və 20 ildən çox müddətdə tanınmış yazıçılarla seminarlar keçirmişdi.

Bir müddət sonra Deymon Nayt “Geriyə, zaman!” (1956), “Corc üçün cəza” (1957), “Gözəlin yaradılışı”, “Qonağım ol”, “Düşmən”, “Aldanma gecəsi” (1958), “Hər şeyə vaxt çatar” (1960) kimi hekayələrini çap etdirmişdir.

“İnsanların yaradıcısı” (1959) romanında insan nüsxələrini yaradan materiya dublikatoru təsvir edilmiş, “Ağılın dəyişdirilməsi” (“Mind switch”) romanında isə (1965) insan beyninin yadplanetlinin bədəninə köçürülməsindən bəhs olunmuşdur.

Həmçinin yazıçı 1965-ci ildə “Amerikalı fantastika yazarların assosasiyasını” və “Nebyula” mükafatını təsis etmişdir.

Ümumilikdə, Deymon Naytın ədəbi irsi yüzdən çox hekayə və onlarla romandan ibarətdir. Yazıçı 2002-ci ildə dünyasını dəyişmişdir.

Amerika fantastik ədəbiyyatının bir nümayəndəsi də Robert Şekli olmuşdur. 1928-ci ildə Nyu Yorkda anadan olan yazıçı yüzlərlə fantastik hekayə və onlarla elmi-fantastik roman və povestlərin müəllifidir. Müsahibələrinin birində “Nə üçün məhz fantastika?” sualına yazıçının cavabı belə olmuşdur: *“Yaradıcı insana sonsuz azadlığı ancaq elmi fantastika janrı bəxş edir”* [44]. Yazıçı həmçinin satirik-yumoristik hekayələrin ustadıdır. O, “Mənə oxşayan robot”, “Mən bunu edəndə siz nə isə hiss edirsiniz?”, “Robert Şeklinin möcüzəli dünyası”, “Kosmosun qırıntıları”, “İnsan ayağının dəymədiyi yer”, “İnsan tələsi”, “Yerdə səyahət” və s. hekayə toplularının müəllifidir. R. Şekli həmçinin “Ölümsüzlük təşkilatı”, “Ağıl mübadiləsi”, “Ertəsi günkü səyahət”, “Status mədəniyyəti”, “Möcüzələr koordinatı” romanları ilə də məşhurdur.

“Mütləq silah” hekayəsində Marslıların qədim silahlarını axtarmaq üçün Yerdən üç tədqiqatçı Mars planetinə yola düşməyindən bəhs olunur.

İyirmiyə yaxın roman və təxminən eyni sayda hekayə nəşr etdirən yazıçı Filips Barbe, Ned Lenq, Finn O’Donnevan təxəllüslərindən istifadə etmişdir. 2005-ci il aprel ayında R.Şekli “Portal” fantastlarının təşkilatçılığı ilə Ukraynaya gedir və orada beyin damarlarının anevrizması səbəbindən əməliyyat olunur, vəziyyəti bir qədər stabilləşir. Hətta növbəti il yenidən Ukraynaya getməyi planlaşdırır, lakin səhhəti durmadan pisləşir

və dekabrın 9-u 2005-ci ildə vəfat edir.

XX əsrin ortalarında Amerika ədəbiyyatında elmi fantastika janrına müraciət edən yazıçılardan biri də Edmond Hamilton olmuşdur. Ohio ştatında doğulan yazıçı Vestminister kollecinə getsə də təhsilini yarıda qoymuşdur. Elmi fantastika janrında yazıçının ilk qələm təcrübəsi “Mamurtun nəhəng tanrısı” adlı qısa hekayəsi olmuşdur. Yazıçının 1933-cü ildə yazdığı “Məntiqsizlik adası” adlı hekayəsi ilin “ən yaxşı elmi fantastik” əsəri hesab olunaraq “Jül Vern” mükafatına layiq görülmüşdür. Hamiltonun elmi fantastikası romantik, ekstravaqant, macəra dolu hesab oluna bilər. Lakin yazıçının ədəbi fəaliyyəti təkcə elmi fantastika janrı ilə məhdudlaşmamış, Böyük Depressiya illərində E. Hamilton həmçinin detektiv və cinayət hekayələri də yazmışdır.

“Təkamül edən insan” yazıçının 1931-ci ildə yazıdığı elmi fantastik hekayəsidir. Hekayəni oxuyan Ayzek Əzimov onu *“yaddaşında uzun müddət qalan və onu təəccübləndirən”* [45] hekayə kimi səciyyələndirmişdir. Əsərdə təhkiyəçi Artur və dostu köhnə sinif yoldaşları olan Pollardın ev və laboratoriya kimi işlətdiyi məkana gəlirlər. Pollard bir qədər dəli alim hesab olunur, çünki o təkamülə səbəb olan mutasiyanı araşdırır. Pollard onlara məlumat verir ki, araşdırmasına görə mutasiyaya səbəb kosmik şüalardır və əgər o özünü kosmik şüuların daha çox təsirinə məruz qoyarsa insanın gələcək bir versiyası kimi formalaşa bilər. O, özünə 15 dəqiqə ərzində 50 milyon il sürətlə inkişaf edən biləcəyi kosmik şüa konsentarsiya düzəldir, lakin onun işləməsi üçün başqa bir şəxsə də ehtiyac var və o köhnə dostlarını də məhz bu səbəbdən laboratoriyasına çağırıb. On beş dəqiqə ərzində Pollard fiziki və intellektual baxımdan çox dəyişir, lakin o təkamül prosesini davam etdirmək niyyətindədir. Növbəti mərhələdə o zəif bədənli, böyük keçəl başlı və qarışıq hisləri olan birinə çevrilir. Lakin o prosesi davam etməyə israrlıdır, çünki bədəni nə qədər zəif və gücsüz olsa da, beyninin böyük və inkişaf etmiş olduğunu iddia edir. Hər yeni mərhələdə Pollard əvvəlki mərhələnin zəif və lazımsız olduğunu bildirir. Üçüncü transformasiyadan sonra Pollard bəşəriyyəti öz əsirinə çevirmək və Yer kürəsini şəxsi laboratoriyası etmək iddiasına qapılır. Növbəti mərhələ Pollardı saf işıqla qidalanan

böyük, boş telepatik beyinli birinə çevirir. Cihazın sonuncu istifadəsi Pollardı bəşəriyyətin ilkin yaradılış formasına qaytarır. Gördüklərindən az qala dəli olan dostları laboratoriyanı dağıdırlar, Pollardı cihazdan çıxartdıqdan sonra laboratoriya yanır və Pollard həqiqətən də ilk insan formasında qalır.

Yazıçıya dünya şöhrəti gətirən əsərlərindən biri "Ruhlu ulduzlar" romanıdır. Roman Yerdəki ekspedisiyanın Altair ulduzunun planetinə səyahətindən bəhs edir. Rin adlanan planet Yer kürəsindəki kimi insanlarla əhatə olunub. Rindəki insanların qarşı çıxmağına baxmayaraq Yerdən gedən ekspedisiya orada qədim zamanlarda dünyalararası müharibələrdə istifadə olunan silahların texnologiyasını öyrənməyə can atırlar. Onların uğursuz axtarışı Rinlərin qədim düşmənləri olan fərqli növ (qaranlıq ruhlu) insanlarla dramatik toqquşması ilə yekunlaşır. Bundan başqa ekspedissiyanın üzvləri Rində qədim dillərin mənşəyini də öyrənmək istəyirlər. Rində məskunlaşan və oraya gedən insanların simasında Hamilton Amerika və Sovet İttifaqını nəzərdə tutur.

Müasir Amerika ədəbiyyatında elmi fantastika və mistika janrında yazan müəlliflərdən biri də Frederik Braundur. O daha çox qısa həcmli, yumor elementləri ilə zəngin, sonluğu təəccüb doğuran hekayələr yazmağa üstünlük verirdi. Yumor və postmodern dünyagörüşünə yazıçının romanlarında da tez-tez rast gəlinir. Həyat yoldaşının sözlərinə görə o yazmağa nifrət edirdi, yazı prosesindən qaçmaq üçün fleyta çalır, dostlarını şahmat oynamağa dəvət edirdi. Bəzən bir hekayəni yazanda o, avtobusla uzun yola səyahətə gedirdi və yol boyu hekayənin süjetini düşünürdü. Evə qayıtdıqdan sonra çap maşınkasının arxasında əyləşir ard-arda mistik, elmi fantastik, qara yumor, qısa fantastika və bəzən də hamısını birlikdə ehtiva edən əsərlər yazırdı.

Frederik Braun hekayələrini yerli jurnallarda çap etdirirdi və ilk hekayəsi "Hələ ki son deyil" 1941-ci ildə çap olunmuşdur. Yazıçının "Necə dəli bir dünyadır" elmi fantastik romanı 1949-cu ildə çap olunmuşdur və bu mövzuda yazılan başqa müəlliflərin əsərlərinə parodiya kimi dəyərləndirilir. "Səmadakı işıqlar ulduzlardır" (1952) əsəri isə sevimli kosmik proqramını yenidən geri qaytarmağa çalışan yaşlı bir kosmonavtdan bəhs edir.

“Hobist” adlı qısa hekayəsində yazıçı müəyyənləşdirilə bilməyən bir maddə üçün ümidsiz axtarışlar içərisində çırpınan Sanqstrom adlı bir obraza müraciət etmişdir. “Çoxdanışanın gecəsi” əsəri kiçik şəhərdə qəzet redaktoru olan obrazın həyatındakı qeyri-adi gününün yumoristik təhkiyəsidir.

Yazıçının ilk mistik romanı “Xəyali yeməkxana” Edqar Allan Po mükafatına layiq görülmüşdür. Həmçinin Braunun “Aren” hekayəsi Amerika elmi fantastik dərnəyi tərəfindən iyirmi ən yaxşı hekayədən biri kimi qiymətləndirilmişdir.

F. Braunun kitablarının çoxu düz xətli süjetə malik olmadığından və daha çox fövqəlreal hadisələrə əsaslandığından xüsusi maraq doğurur.

On yeddi yaşında gələcəklə bağlı proqnozlar verən “Futurians” adlı dərnək quran Frederik Pol (1919-2013) çağdaş ABŞ ədəbiyyatında elmi fantastika janrının əsas ustalarından hesab olunur. Dərnəkdə Ayzek Əzimov, Donal Volheim kimi yazıçılarla tanış olan F. Pol daha sonra “Gənc Kommunistlər dərnəyinə” qoşulmuş və dərnəyin Fletbaş şöbəsinin rəhbəri olmuşdur. İlk hekayəsi “Ölü Peykə elegiya: Ay” 1937-ci ildə nəşr olunmuşdur. Yazıçının ən sonuncu romanı “Onun yönləndirdiyi bütün həyatlar” [29] isə 2011-ci ildə çapdan çıxmışdır.

O, elmi fantastika janrının aktuallıq qazandığı ilk dövrlərdən bu istiqamətdə Ayzek Əzimov kimi usta yazıçının izlərini təqib etmişdir. 1977-ci ildə nəşr olunan kitabında psixoanaliz, qara dəlik keçiriciliyi, “Kugelblitz” adlandırılan işıqdan yaradılan qara dəlik teoriyası, Stefan-Boltzmann qanunları, kuantum fizikası, işığın süriti, ölüm anlayışı, insanın pis və yaxşı xisləti, ölümdən sonra şüurun elektronik mühitə ötürülərək süni həyatın davam etdirilməsi, astro-fizika kimi diqqət çəkən mövzulara müraciət etmişdir.

Jurnalist, fotoqraf, ədəbi tənqidçi, ətraf mühit məsləhətçisi, qısa hekayə yazarı kimi tanınan Frank P. Herbert (1920-1986) ədəbi aləmdə elmi fantastika yazarı kimi də şöhrət qazanmışdır. 1952-ci ildən dövrün elmi fantastika jurnallarında hissələrlə roman çap etdirmişdir [21].

Elmi fantastika janrının qızıl dövründə F. Herbert 1962-ci ildə çapdan çıxmış

“Dune” romanı ilə sosial, psixoloji, dini və siyasi mövzuları elmi fantastika janrının elementləri ilə çulğalaşdıraraq olduqca fərqli bir tərzdə əsər ərsəyə gətirmişdir.

Filip Kindred Dik (1928-1982) 1928-ci ildə ABŞ-n Çikaqo ştatında ekiz bacısı Ceyn ilə birlikdə doğulmuşdur. Qırx bir gün sonra anasının südünün səbəb olduğu allergiyadan ölən bacısına görə həyatı boyu anasına nifrət etmiş və bacısının kədərini hər zaman qəlbində yaşamışdır. Uşaqlığı, boşanmış valideynlər, müxtəlif növ paranoyalarla evinin dörd divarı içərisində, anasının nəzarəti altında keçmişdir [28].

Narahat ruh halı, yarımçıq qalmış təhsil həyatı, açıq məkan qorxusu kimi müxtəlif psixi problemlər, narkotik və qarabasmalar yazıçının həyatını demək olar ki, zindana çevirmişdi. On üç yaşı olarkən Con Kempbelin redaktorluq etdiyi “Astounding and Unknown” adlı elmi fantastik jurnal ilə tanış olmuşdur. Davamlı olaraq Alfred Van Voqtum əsərələrin oxumağa başlayan Filip Dik on dörd yaşında “Liliputluğa qayıtmaq” adlı ilk romanını yazmışdır. 1953-54-cü illərdə əlli altı hekayə, 1964-69-cu illər arasında on altı roman yazmışdır. Həyatının son illərində “Androidler elektron qoyun xəyal edərmi?” adlı əsərini çapdan çıxartmışdır. Yazıçı oxucunu cəlb etmək üçün bəsit yolla texnoloji inqilaba, qarışıq gələcəyə, ulduz fəmilərinə müraciət etməmişdir. Robotlar, narkotikin təsirindən görülən qarabasmalar, mistik varlıqlar, androidlər, paranormal situasiyalar F. Dikin yaratdığı dəyişkən dünyalardakı hadisələrin əsas ünsürləridir.

Yazıçının həyat yoldaşların biri Anna Dik tərəfindən “Filip Dikin ardında” adlı kitab qələmə alınmışdır. Müəllifin “Blade Runner”, “Total Recall”, “Minority report” adlı romanları əsasında filmlər çəkilmişdir. Son dövrlərdə isə Filip Dikin “Elektrik xəyalları” adlı romanı əsasında serial çəkilmişdir.

Əsərlərində sadəcə yaşadığı dövr üçün deyil, bütün zamanlar üçün aktual olan problemləri qələmə alan Filip Dikkin yaradıcılığı hələ də tam mənası ilə araşdırılmamışdır. Təkcə elə yazdığı əsərlərindəki fantasmoqorik motivlərə əsasən deyə bilərik ki, F. Dik elmi fantastik ədəbiyyatı kosmik macəralar mərhələsindən yeni bir mərhələyə keçməyə vadar etmişdir.

Çağdaş elmi fantastika ədəbiyyatının görkəmli nümayəndəsi Ursula Quin (1929-2018) 1929-cu ildə ABŞ-ın Kaliforniya ştatında anadan olmuşdur. Anası psixoloq, atası antropoloq olan yazıçı Dünya Fantastika mükafatı, Hüqo mükafatı, Lokus və Nebula mükafatları laureatıdır.  Yazıçı elmi fantastika janrına ənənəvidən bir qədər fərqli tərzdə müraciət etmişdir. Feminizm və sosializmlə bağlı fikirlərini əsərlərində tez-tez qeyd edən müəllif fonunda elmi fantastika olan lakin çox da bilinməyən mövzularda oxucunu düşünməyə vadar edən romanlar yazmış, sərt elmi fantastikanın əsas yazıçılarından birinə çevrilmişdir [16].

U. Quin elmi fan tastikada çox istifadə olunan klişelərə müraciət etmək əvəzinə siyasət, sosialogiya, biologiya, psixologiya kimi elm sahələrinə əsaslanaraq əsərlər ərsəyə gətirmişdir. Texnoloji və elmi inkişaf yazıçının kitablarında sadəcə bir haşiyədir. "Mülksüzlər" ideologiyalar arasındakı fərqlərə, "Qaranlığın sol əli" isə gender probleminə həsr olunmuşdur. Əsərləri elmi tərəfdən təhlil edildikdə hər hansı elmi qayda və yenilik ehtiva etmədiyindən yazıçını sərt elmi fantastika yazarı adlandırmaq mümkün olmasa da, janrın inkişafina verdiyi töhfələr əsasən onu elmi fantastic ədəbiyyatın ciddi yazıçılarından biri adlandırmaq olar.

Elmi fantastikanın cəmiyyətdə və insan həyatında baş verən dəyişikliklər ilə əlaqəli bir janr olduğunu nəzərə alaraq mövcud kontekstlər, tənzimləmələr və problemlərlə əlaqədar olaraq dəyişikliklərə məruz qaldığını görmək mümkündür. Təhlil etdiyimiz müəlliflərin hər birinin yaradıcılığında da zamanın tələbinə uyğun modifikasiyalara məruz qalmış elmi fantastik əsərlər mövcuddur. Belə ki, müharibədən sonrakı Amerika mənzərəsi sürətlə dəyişən texnoloji, sosial, iqtisadi və siyasi aspektləri ilə təhlükəli və mürəkkəb dünyada bəşəriyyətin taleyini ekstrapolyasiya etmək üçün elmi fantastik təcrübələr üçün uyğun "laboratoriya" təklif etmişdi və elmi fantastic ədəbiyyatın çox hissəsi, hətta ən radikal formasının belə, zaman keçdikcə müəyyən dərəcədə real olduğu sübuta yetmişdir. Fantastik ehtimalların müasir dünyada gerçəkləşməsi nə dərəcədə

realdırsa, müasir cəmiyyət və sosial metamorfozaların insanlara təsirləri ilə bağlı janrdakı personajların insanın mühitdə real yerini təsvir etməsi də eyni dərəcədə realdır.

# II FƏSİL

# AYZEK AZİMOVUN YARADICILIĞINDA ELMİ FANTASTİK PROQNOZLAR

## 2.1. Ayzek Azimovun əsərlərindəki fantastik elementlər

XX əsr elm və texnikanın sürətli inkişafı, yeni texnologiyaların, praktiki və elmi innovasiyaların, kommunikasiya texnologiyalarının inkişafı ilə səciyyələnir və tarixə informasiya əsri, daha geniş mənada elm və təhsil əsri kimi daxil olmuşdur. SSRİ tərəfindən Yuri Qaqarin və qarşı tərəfdən Neil Armstron kosmosa uçan və aya ilk ayaq basan şəxslər olaraq tarixə adlarını yazdıra biliblər. Bütün bu texnoloji inqilablar ölkə rəhbərliyinin Soyuq Müharibədəki qalibiyyət arzusunun nəticəsində ortaya çıxmışdır. Lakin bu heç də o demək deyil ki, tarix boyu sadəcə hərbi insentivlər texnologiyanın inkişafına təsir göstərmişdir. İnsanların həyat şəraitini nisbətən də olsa yaxşılaşdırmaq amalı texnoloji inqilablara səbəb olmuşdur. Dünyada baş verən proseslər sözsüz ki, ədəbiyyata da öz təsirini göstərmişdir. Ayzek Azimovun timsalında elmi fantastika yazarları zamanın nəbzinə uyğun əsərlər yazır, hətta fantasmaqorik ehtimallarla gələcəkdən proqnozlar da verməyə cəhd göstərirdilər.

Fantastika yazarlarının əsərlərindəki hadisələr çox vaxt dünyadan fərqli məkanlarda baş verir. Yazıçıların fərqli məkanlara müraciət etməsi heç də səbəbsiz deyil. Sosioloji və siyasi səbəblərdən başqa janrlarda yazıb yaradan yazıçıların ədəbi nümunələri çox zaman tənqidə məruz qalırdı. Bu səbəbdən dövrü mətbuat həmin əsərləri çap etməyə elə də maraq göstərmirdi. Elmi fantastik ədəbiyyat isə elmə və ədəbiyyata verdiyi töhfələrə görə maraq doğururdu. Elmi fantastika yazarları mövcud problemləri qabardaraq gələcək dünyaya köçürür və bununla da, sanki dövrün və yaşadıqları ölkənin problemlərinin fövqündə dayanırdılar. Həmçinin, elmi fantastik əsərlərdəki spekulativ fikirlər də oxucuları və ədəbiyyatçıları cəlb edirdi.

Mövcud dövr üçün gerçəkləşməsi absurd hesab olunan ideyalar, nəzəriyyələr,

qalaktik müharibələr, texniki tərəqqi, müxtəlif planetlərdəki yaşam elmi fantastika müəlliflərinin müraciət etdiyi əsas mövzulardır. Məhz bu səbəbdən, ədəbiyyat üçün mühüm hesab olunan elmi fantastika janrı cəmiyyətin təkamülündə də mühüm rol oynayır. Çağdaş insanın həyatını asanlaşdıran, bir çox elmi nailiyyətlərin əldə olunmasının, digər planetlərlə bağlı aparılan araşdırmaların intensivliyində elmi fantastika janrı əsas mənbə hesab oluna bilər. Elmi fantastika yazarlarının əsas məqsədi ədəbi əsər ərsəyə gətirməklə bərabər dünya üçün yeni imkanlar yaratmağa vəsilə olmaq, bəşəriyyətin inkişafına xidmət etmək, yeni ideyaların tədqiqinə şərait yaratmaqdan ibarətdir. Bununla bərabər, yazıçılar belə mövzular vasitəsilə cəmiyyətin problemlərini işıqlandırmaq və mümkün həll yolları təklif etməyə cəhd göstərirdilər. Bununla yanaşı bu kimi mövzuların köməyi ilə mövcud cəmiyyətin problemlərini bu və ya digər yollar vasitəsilə dünyaya çatdırmaq, onların həll yolunu tapmaq XX əsrdə öz təşəkkülünü tapmış elmi fantastik janrının əsas məsələlərindəndir.

Dünyada Amerika yazıçısı kimi məşhurlaşan, Rusiyada anadan olan, əslən yəhudi Ayzek Azimov "Təməlçilər", "Kosmik axınlar", "Marslıların yolu", "Ölü planet", "Zamandan qaçış", "Qızıl qalaktika", "Mən, Robot", "Robotlar və İmperiya", "Günəşin Tanrıları", "Dəmir Mağaralar" və bir çox digər əsərləri ilə öz adının elmi-fantastika janrının ən görkəmli nümayəndələri içərisində çəkilməsinə səbəb olmuşdur.

Ayzek Azimov 1920-ci ildə Rusiyada Smolensk yaxınlığında yəhudi ailəsində anadan olub. Onun ailəsi 1926-cı ildə Amerikaya mühacirət etmiş, Azimov da ailəsi ilə birlikdə kiçik yaşlarından işləməyə başlamışdır. Çox erkən oxuyub-yazmağa başlayan Azimov uşaqlıqdan kitab həvəskarı idi.

Erkən yaşda yaradıcılığa başlayan, ilk hekayəsi 19 yaşında nəşr olunan Azimov Kolumbiya Universitetində kimya müəllimi və professor kimi fəaliyyət göstərməsinə və bir çox elmi əsərlər müəllifi olmasına baxmayaraq bədii əsərlərinin uğuru və ona məşhurluq qazandırması yazıçını ədəbi yaradıcılığa daha çox vaxt ayırmağa vadar etmişdir.

Daha sonralar Amerika elmi fantastikasının qızıl dövrü adlandırılan 1930-50-ci illərdə Azimov ilk dəfə elmi fantastikanın sosial və siyasi əhəmiyyətini vurğulamış, elmi fantastik janrını jurnallarda macəra romanları formasında nəşr olunan əsərlər sırasından çıxardaraq elm və texnikanın inkişaf potensialını göstərən, daha ciddi qəbul olunan janr formasına gətirmişdir.

Azimovun ədəbi yaradıcılığının 1940-90-cı illəri əhatə etməsinə və yazıçının artıq məşhur olmasına baxmayaraq onun əsərləri ədəbi tənqiddə yerini az tutmuşdur, ədəbiyyatşünaslar bunun səbəbini yazıçının tənqidçilərə şərh və izah etmək üçün çox informasiya verməməsində görürlər.

Qoldman qeyd edir ki, *"əsərlərində nəyin və niyə baş verdiyini aydın və birbaşa ifadə etməsinə görə Azimovun əsərlərinin demək olar ki, şərhə ehtiyacı yoxdur"* [15, s. 42]. Azimov əsərlərində nəyin baş verdiyi və ya mənasının nə olduğu ilə yox, süjetin irəliləməsi üzərində mərkəzləşir. Eyni zamanda, bunun digər bir səbəbi onunla əlaqədardır ki, Azimov bəzi əsərlərinin müqəddiməsində özünün bioqrafiyasından da bəhs edir. Onun "Yaddaşım hələ təzədir" (1979), "Hələ də sevinc" və ölümündən sonra nəşr olunan "Mən, Azimov" bioqrafiyaları həyatı, yaradıcılığı haqqında məlumat verməklə yanaşı yazmaq prosesi və nəşri haqqında da geniş məlumat verir. Yazıçı eyni zamanda dərc etdirdiyi məqalə və esselərində elmi fantastika və öz əsərlərində qaranlıq qalan bəzi məqamlara aydınlıq gətirir.

Yaradıcılığa elmi fantastika janrında kiçik hekayələr yazmaqla başlayan Azimov ilk dövrlərdə onları nəşr etdirməkdə problemlər yaşayır. O, 1938-ci ildə ilk hekayəsi "Vestanın əsirliyində"ni yazaraq "Astounding" jurnalının redaktoruna təqdim edir. Lakin redaktor hekayənin nəşrindən imtina edir. Bunun səbəbi isə bu hekayələrin ənənəvi elmi-fantastik əsərlərdən fərqli olması idi. Çünki Azimovun əsərlərində əsas mövzu kimi müraciət etdiyi robotlara XX əsrin 40-cı illərində münasibət birmənalı deyildi. Həmin dövrdə elmi fantastik əsərlərdə mənfi obrazda, insanlara zərər yetirən, onları məhv etməyə çalışan robotlar səciyyəvi idi. Gənc müəllif hekayəsini bir il sonra "Amazing stories"

jurnalında çap etdirməyə müvəffəq olur.

Elə həmin ildə Azimov robotlar haqqında ilk hekayəsi "Robbi"ni yazır. Bu hekayədə bir qıza dayəlik edən və onun yaxın dostuna çevrilən robotdan danışılır. Hekayədə robotun davranışını müyyən çərçivəyə salan proqramın olması göstərilir ki, bu da bu da robotexnika qanunlarının ilkin təzahürü kimi nəzərdə tutulur. Əsər 1940-cı ildə "Super Science Stories" jurnalında çap olunur. Robotlar haqqında digər hekayə Con V. Kempbellin redaktor olduğu "Astounding" jurnalında işıq üzü görür. Məhz Con V. Kempbellin fikirləri, istiqamətləri Ayzek Azimovun dünya miqyasında elmi fantastik janrın məhşur yazıçısı kimi formalaşmasında əvəzsiz rol oynamışdır. Redaktor nəinki Azimovun həmçinin digər elmi fantastların da yazıçılıq kariyerasına mühüm təsir göstərmişdir. Elə buna görə də 1938 və 1950-ci illər Kempbelin başçılığı altında "Elmi Fantastikanın Qızıl Dövrü" kimi tanınır [10, s. 42].

Ayzek Asimov humanist və rasionalist idi. O, başqalarının əsl dini inancın əleyhinə çıxmayıb, lakin buna yol açaraq batil və əsassız inanclara qarşı bir sıra çıxışlar edib. Uşaqlıq dövründə ailəsi əsasən heç bir dini təbliğ etmədiyindən Asimov hər hansı güclü dini təsirlə böyüdülməyib. Uzun illər Asimov özünü ateist adlandırmışdır baxmayaraq ki bu kəlmə onun inancını tam əhatə etməmişdir. Daha sonra isə daha yararlı alternativ olaraq özünü "humanist" adlandırıb [3, s. 9-10].

Yazıçının karyerası bir neçə dövrə bölünə bilər. Elmi fantastika hakim olan erkən karyerası 1939-cu ildə qısa hekayələr və 1950-ci ildə romanlar ilə başlamışdır. Bu, 1958-ci ilə qədər davam etdi, ancaq "Foundation Edge"in dərcindən sonra sona çatdı.

1941-ci ildə dərc olunan "Gecənin gəlişi" qısa hekayəsi elmi fantastik janrın ən məhşur qısa hekayələrindən biri oldu. Hekayə 1968-cı ildə Amerika Elmi Fantastik yazıçıları tərəfindən ən yaxşı qısa elmi fantastik hekayə kimi seçilmişdi.

A. Azimov elmi fantastik ədəbiyyat dedikdə ağıla gələ biləcək ilk yazıçılardandır. Eynəkli, kovboy qalstuku ilə yaddaşlara həkk olunan portreti çox insanın təfəkküründə onu elmi fantastikanın simvoluna çevirir. O, Boston Universitetində professor dərəcəsi

almış, elm adamı, qatı humanist, vizioner bir futurist və nağılları mənasız hesab edən ciddi bir poztivist idi. Pozitivist mövqeyi, elmi fantastika yaradcılığının erken vaxtlarında ona hətta maneə yaradırdı.

Yüksək erudisiyaya malik olan yazıçı yenə də novatorluq edərək elmi fantastikaya astrofizika, kibernetika kimi elm sahələri gətirib. Bu mövzular ilk dəfə onun "Gecənin gəlişi" adlı əsərində əks olunmuşdur. Kibernetika maşınlarının insan məişətinə daxil olumasını təsvir edən əsərlərindən biri də "Seçkilər" [4] adlı əsəridir. Müasir demokratiya beşiyi olan Amerikanın siyasi sistemindəki, seçkilərdəki bir sıra neqativ xüsusiyyətlər elmi fantastik elementlərin köməyi ilə göstərilib.

Yazıçının robotlardan bəhs etdiyi hekayələri daha sonra "Mən, Robot" adlı kitabında toplanmışdır.

Ayzek Azimova dünyada şöhrət gətirən əsəri əslində, "Mən, Robot" deyil, 1942-ci ildə qələmə aldığı, "Təməl" [12] (əsl adı "Foundation" olan əsər dilimizə "Fond", "Təməl", "Akademiya" kimi tərcümə olunmuşdur – F.T.) adını verdiyi Qədim Roma imperiyasının yüksəlişi və dağılmasından bəhs edən silsilə romanlarıdır. Azimov Filadelfiyada çalışarkən Gibbonun "Roma imperiyasının tənəzzülü və dağılması" adlı tarixi əsərindən təsirlənərək dörd qısa hekayə yazmışdır. Burada köhnə imperiyanın dağılmasından sonra yeni bir imperiyanın əsasının qoyulmasından, insanların bir ideya ətrafında düşmənlərinə qarşı sıx birləşməsindən bəhs edir. Əsərdə bu məqsədə robot Deniel xidmət edir. Onun əsas vəsifəsi Robotexnikanın qanunlarını pozmadan bu ideyaları həyata keçirməkdir.

Ayzek Azimovun "Təməlçilər" silsilə romanlarında hadisələr kosmos əsrinin başlanğıcından, təxminən, 20-30 min il sonra baş verir və uzaq gələcəyin aliminin ixtirasına səbəb XX əsrdə yaşayan adamın şüuru, "MƏN"i uzaq gələcəyə gedir və orada bir sıra gərgin hadisələrin iştirakçısı olur. Futuristik ehtimallar hadisələrin gələcəkdə cərəyan etməsi ilə bağlıdır. Bu triologiya və robot seriyaları onu ən çox məhşurlaşdıran elmi fantastik əsərləridir.

Kosmik məkana, uzaq gələcəyə müraciət edən Ayzek Azimov həmişə Yerin problemlərindən çıxış edir və əslində, realist yazıçı həmin məsələlərin həllini də verir. 1942-ci ildə imperiyaların yüksəlişinə və tənəzzülünə, dağılması probleminə diqqət yetirən yazıçı Qədim Roma imperiyasının tarixinə dair ədəbiyyatı öyrənməyə başlayır. Nəticədə böyük bir silsiləyə başlanğıc vermiş “Təməlçilər” romanı yaranır. Bu silsilədə Qalaktik imperiyanın dağılmasından, yeni ictimai quruluşun yaranmasından və heç bir kənar qüvvənin onun daxilinə nifaq sala bilməməsi üçün bəşəriyyətin vahid bir orqanizmdə birləşməsinin labüdlüyü əsaslandırır. Qalaktika ideyası və Sıfırıncı qanun da buna xidmət edir. Lakin birliyin bərqərar olması üçün mütləq insanın razılığı tələb olunur. Silsilədəki hadisələrin milyonlarla ulduz dünyasını birləşdirən ərazidə baş verməsinə baxmayaraq,əsərin, daha doğrusu bütövlükdə silsilənin əsas ideyası “xarici düşmən qarşısında davam gətirmək üçün ölkə daxilində qarşılıqlı anlaşma olmalıdır” şəklində ümumiləşdirilə bilər. Təbii ki, əsərin əsas qayəsi bununla məhdudlaşmır, lakin bütün bəşəriyyat üçün örnək ola biləcək bir fikir vardır: iyirmi min ildir ki, mövcud olan robot Deniel də robotexnikanın qanunlarının tələbi ilə hər insanın fərdiyyətini saxlamaqla bəşəriyyəti vahid bir orqanizmdə birləşdirməyə çalışır.

Sonradan bu romanlarını “Təməlçilər”, “Təməl və İmperiya” və “İkinci Təməl” triologiyasında birləşdirdi. Silsilə o qədər oxucu marağına səbəb olmuşdur ki, silsiləni üç roman formasında başlayan yazıçı otuz il sonra yenidən bu mövzuya qayıtmış, əsərin davamını yazmışdır, lakin silsilə yenə də natamam qalmışdır. 1966-cı ildə bütün dövrlərin ən yaxşı elmi fantastika və fantaziya romanları olduğuna görə Hüqo mükafatına layiq görülüblər.

Azimov burada yeni bir termin – bəşəriyyətin gələcəyini öncədən görmək mənasını verən “psixotarix” anlayışını yaratmışdır. “Təməlçilər” trilogiyasında Hari Seldonun fikrincə, sıxışdırılmış bir qazda molekkulların hərəkətini bilmək mümkün deyil, lakin həcm azaldıqca, təzyiqin nə qədər artacağını bilmək mümkündür. Bunu nəzərə alaraq, cəmiyyətin ayrı-ayrı fərdlərinin olmasa da, bütün cəmiyyətin gələcəyini hesablamaq

mümkündür. Bununla da, psixotarix ifadəsi ortaya çıxmışdır. Yazıçı özü isə bu barədə belə qeyd edir: *““Təməlçilər”i yazarkən öncə psixotarix anlayışını ifadə etməyə çalışdım. Digər tərəfdən isə bütün kainatı əhatə edən bir hekayə yazmaq istədim. Bunun üçün də Roma İmperiyasını daha geniş bir çərçivədə şərh etdim. Bu səbəbdən trilogiyadakı quruluş Roma imperiyası ilə çox bənzərdir. Mənim fikrimcə, əgər bütün kainatı əhatə edən imperiyamız olsa, orada yaşayan trilyonlarca insanların fərdi davranışlarını əvvəlcədən təxmin edə bilməsək də, cəmiyyətin necə davranacağı haqqında öncədən təxminimizi formalaşdıra bilərdik”* [27].

Ümumiyyətlə, yazıçının əsərlərindəki yeni kəşflər və terminlər (robotexnika, pozitron, psxiotarix və s.) sonradan bir çox dillərə daxil olmuşdur. Özünəməxsus nəsr ustalığı ilə məşhur olan elmi fantastika janrında yazdığı əsərlərlə dünyada tanınan Ayzik Azimovun əsərlərində yaratdığı obrazlar emosional kodları, dialoqları funksional, süjeti isə nəhəng labirinti xatırladır. Fantastik alim qəhrəmanların dili ilə yeni texnoloji nəzəriyyələr irəli sürür, mühakimələr və ideyalar yürüdür. Bütün bu nəhəng sistem qlobal kompüter şəbəkəsi ilə idarə olunur və supergücə malik süni intellekt sahibləri də virtual fəzalarda asanca işləyə bilirlər.

Azimovun elmi fantastik görüşlərində əsas məqsəd əsərin təhkiyə quruluşu və ya janrı deyil onun cəmiyyət üzərində təsiridir. Buna görə də 1953-cü ildə yazdığı “Sosial elmi fantastika” adlı essesində robot və texnologiyadan çox insan problemi üzərində dayanır.

Yazıçı yaradıcılığını “Təməlçilər” silsiləsi ilə yekunlaşdırmamış ədəbi fəaliyyətini bir çox roman və roman silsilələri ilə davam etdirmişdir. Lakin Azimovun mövzu dairəsi, yaradıcılığı o qədər zəngin və çoxşaxəlidir ki, onu tam işıqlandırmaq demək olar ki, mümkün deyil. Ayzek Azimov fantastika yazarı kimi qəbul olunsa da o öz yaradıcılığı ilə bəşəriyyətin real qayğılarına toxunmağa müvəffəq olmuşdur.

Yazıçı bir çox siyasi məsələlərdə, demokratik partiyanın tərəfdarı idi. 1960-cı illərdə Vyetnam müharibəsinin vokal rəqibi idi və 1970-ci illərin əvvəllərində televiziya

müsahibəsində o, açıq şəkildə Corc McGovernni dəstəklədiyini təsdiqlədi. O, 1960-cı illərin sonlarından etibarən bir çox açıqfikirli siyasi fəalların irrasionalist bir izi kimi gördüyünə məyus oldu.

Onun digər əsərləri "Qalaktika imperatorluğu" adlı triologiyasında toplanmışdır. Lakin bu trilogiyanın "Təməlçilər" triologiyası ilə heç bir mövzu əlaqəsi yoxdur. "Qalaktika imperatorluğu "Kosmik Axınlar", "Toz kimi ulduzlar" ("The Stars, Like Dust") ,"Səmada çınqıl" ("The Pebble in the Sky") adlı hekayələrdən ibarətdir.

A. Azimov "Qalaktika impereratorluğu" trilogiyasının hər üç kitabındakı obrazları müdafiə edir və onları böyük bir quruluşa qarşı yönləndirir. İkinci Dünya müharibəsindən sonra Sovet hökümətinin Şərqi Avropa üzərindəki hökmranlığını nəzərə alaraq deyə bilərik ki, müəllifin bu mövzunu işıqlandırması heç də təsadüfi deyil.

Yazıçının sivilizasiyalar aləmində təsvir etdiyi modellər Qalaktika boyu minlərlə planeti əhatə edir. Uçan raketlər, sürətli qurğular, kosmik gəmilər, telepatların təsviri, kosmik fəza sakinləri, müxtəlif səyahətçilər bu əsərlərin süjetini maraqlı edən əsas vasitələrdir.

"Qalaktika imperatorluğu" silsiləsinə aid olan ilk roman "Toz kimi ulduzlar"dan sonra A. Azimovun elmi fantastika janrında yazdığı mükəmməl əsərlərdən biri də "Kosmik axınlar" [1] romanıdır. Roman Florinada dəyərli bir bitkinin ətrafındakı mübarizələrin kəskinləşməsindən sonra yaranan problemlər üzərində qurulub. Yüksək istilik dərəcəsində hər cür forma ala bilən, şüşə və plastik yerinə iqamə edilə bilən, optik alətlərdə, hiperatomik motorlarda və tekstildə istifadə edilə bilən bitkinin maliyyə dəyəri bu mübarizəni daha da kəskinləşdirir. Üstəlik bitkinin təbii mühitə görə sadəcə Florinada yetişdirilə bilməsi planetin strateji vacibliyini önə çıxarır.

Əsərdəki hadisələr təqribən 1129-cu ildə baş verir. Florina adlı bir kənd təsərüffatı planetinin hökmdarı Sark uzun illər əvvəl buranı hakimiyyəti altına alıb və planetin işçilərini qul kimi çalışdırır. Kosmosun digər planetləri orada yetişən bitkidən məhrum qalmamaq üçün hökmdarın etdiklərinə göz yumurlar.

Lakin bir gün işçilərdən yaddaşını itirmiş Rik adlı bir şəxs nəyisə xatırladığını əslində başqa bir planetdən gəldiyini və keçmişdə başqa biri olduğunu söyləyir. Daha da vacib olan isə Florinanın yaxın bir zamanda məhv olacağı kimi mühüm bir fikrə sahibdir. Beləcə başına nəyin gəldiyini aşkar etmək üçün bir sıra yollara əl atmağa cəhd edir. Lakin həm Trantor casuslarının, həm də ki Sark qüvvələrinin onun arxasınca düşə biləcəyini nəzərə almır.

Sarkın Florina üzərində hökmranlığında gizli bir istehza var: məlumdur ki, Cənubi Amerikada pambıq yığımı üçün qul əməyindən istifadə olunur. Florinalılar Sark xalqı istisna olmaqla ağ-dərili insanlardandırlar. Həkim Səlim Cunç Libair adlı qara dərili insanların yaşadığı planetdən gələn və Florinalılara xüsusi hörmət bəsləyən bir obrazdır. Səlim Cunç obrazı əsərdə bir növ elmin inkişafının simvoludur. Rikin proqnozu məhz onun sayəsində aydınlaşdırılır. Belə ki, kainatda baş verən ulduz partlayışları elmi səbəblərlə izah olunur. Məhz bu biliklər sayəsində Florinada yaşayan insanların həyatı xilas olur. Azimov insanı sivilizasiyanın əsasını təşkil edən varlıq kimi görür. İnsanın elmi axtarışları, töhfələri, ixtiraları və kəşfləri nəticəsində qalaktikada baş verən bu kimi təhlükəli tendensiyaların qarşısı alınır.

Yeri gəlmişkən, Frank Hertbertin 1965-ci ildə nəşr olunan “Dune” romanında da buna bənzər bir fantastika yaradılmış, Arrakis-Ədviyyat tənliyinə əsaslanan güc döyüşlərinin hekayəsi verilmişdir. Əlbəttə ki, bu kimi fikirlər yaşadığımız dünyaya alleqoriyadır. “Dune”nin ədviyyatı ilə Orta Şərq neftinin paralellərini cənub əyalətləri və pambıq yığımı arasında da aparmaq olar. Cənub əyalətlərində pambıq uzun illər davam edən köləlik sisteminin əsas səbəblərindən biri idi və Amerika vətəndaş müharibəsində mühüm rol oynamışdı.

Florinanın məhv olma ehtimalı, “ruhi proqnoz” cihazı tərəfindən idarə olunan və ümumi amneziya ilə nəticələnən “spatio-analitik” Rik tərəfindən proqnozlaşdırılır. Rik tədricən keçmişini xatırlayır, Sark, Florina və Trantorun iştirakı ilə siyasi böhran yaradır. Yer planetindən olan Rik, Florinanın günəşi bir novana partlatmağı planlaşdırdığını,

çünki kosmosdan “okean axınları” kimi görünən xarici kosmik “cərəyan axınlarından” biri tərəfindən karbon qazı verildiyini aşkar etmişdi. Elmi fantastikada əsas mövzularından biri də apokaliptik və apokaliptik sonrasıdır. Rikin Florinanın məhv olacağı ilə bağlı fikirlər irəli sürməsi və onun qarşısının necə alınması ilə bağlı çıxış yolları tapmağa cəhd etmək istəməsi bu kimi janrlarda yazılan əsərlərdə rast gəlinə bilinəcək mövzulardandır [46].

Müəllif ümumiyyətlə, yaradıcılığı boyu novatorluğa meyil etmişdir. Modernizm nə qədər ənənəvi prinsiplər əleyhinə mübarizə aparan bir cərəyan olsa da onun adı altında yaranmış janrların çoxunda bir sıra ənənəvi ünsürləri görmək olar. Ədəbiyyatın gəzərgiliyi prinsipi bütün dövrlər üçün aktualdır. Yazıçılar dövrləri üçün global mövzulara toxunur, yaxud da gələcəkdə baş verə biləcək hadisələri öncədən görərək yazırlar. Bu ədəbiyyatda Kassandra effekti adlanır. Kassandra - qədim yunan mifologiyasının qəhrəmanıdır. Rəvayətə görə, Apollon ona aşiq olur və onu bəsirət hədiyyəsi ilə mükafatlandırır. Amma Kassandra bu sevgiyə qarşılıq vermir və qəzəblənmiş tanrı elə edir ki, qızın öncəgörməsinə heç kim inanmasın. Kassandra Troyanın məhv olmasını qabaqcadan xəbər verir, lakin onu lağa qoyurlar və ağılsız hesab edirlər. Nəticədə, tarixdə bir çox hadisələr var ki, gələcəyi görənlər yaxınlaşan qəzalar haqda insanları xəbərdarlıq etməyə çalışıblar, lakin onlara heç kəs inanmayıb. Beləliklə, bu anlayış tarixə “Kassandra effekti” adı ilə daxil olub. Buna misal olaraq, Robert Haynlayn öz əsərlərində elmi ehtimallarla bərabər, onların gələcəkdə bəşəriyyətə gələ biləcək fəlakətlərin də proqnozunu verib. Amerikalı fantast Xirosima faciəsindən dörd il əvvəl – 1941-ci ildə “Uğursuz nəticə” adlı povestində amerikalıların “Uran-235”dən mərmi düzəldəcəklərini və müharibənin axırında həmin mərmini düşmənin böyük şəhərinə atacaqlarını təsvir etmişdi. Təsvirlər o qədər aydın və yerli-yerində idi ki, yazıçını hərbi sirləri yaydığına görə, məsuliyyətə cəlb etmişdilər. Çünki həmin ərəfədə ABŞ-da və İngiltərədə atom silahı ilə bağlı işlərə artıq başlanılsa da, bu proses son dərəcə məxfi aparılırdı… [47].

Göründüyü kimi digər elmi fantastika yazarlarının əsərlərində olan Kassandra

effekti A. Azimovun əsərlərindən də yan keçməyib. Bu effekt keçmiş dövr ədəbiyyatında obrazlar tərəfindən irəli sürülən təxmin kimi əks olunurdu. Lakin elmi fantastik janrda həmin proqnozlar tamamilə mifoloji, kor- koranə qabıqdan azad olundu. Bu fikirlər sırf elmi əsaslara dayanır, rizayi və kimyəvi hesablamalarla irəli sürülür. Əsərin baş qəhrəmanı olan Rik Florinanın məhv olacağı ilə bağlı fikirlər irəli sürür lakin bəziləri onu dəli hesab edirlər. Digərləri isə onun bu fikirlərinin bir çox problemlərə səbəb olmaması üçün onu "psixozondlaşdırırlar". Ədəbiyyatın gəzərgiliyi prinsipini irəli sürərək dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytamatovun "Gün var əsrə bərabər" ("The Day Lasts More Than a Hundred Years") əsərində də eyni tale ilə üzləşən obrazlar vardır. Əsərdə təsvir olunan dəhşətli hadisələrdən biri də insanların başına dəvə boynunun dərisini keçirdərək günəşin altında bağlı saxlayırdılar. Bu insanların başını o qədər möhkəm sıxırmış ki, dəhşətli, dözülməz ağrılar nəticəsində şüuru, ağlı itmiş insandan kölə kimi istifadə edirdilər. Şəxsiyyətin itirlməsi problemi hər iki əsərdə aydın şəkildə göstərilib ki, bu da insanların öz ailələrini, öz köklərini unutmasına gətirib çıxarır. Modern köləlik təbiri təhdid, şiddət, zorlama, hiylə, sui-istifadə kimi səbəblərlə insanların istismar edilməsi, ancaq buna qarşı gələ bilmədikləri və şərtləri tərk edə bilmədikləri vəziyyətlər üçün istifadə edilir. Bu da "yuxarı" təbəqəyə məxsus olan insanların "aşağı" təbəqələrin üzərində olan hökmranlığını açıq şəkildə göstərir [48].

A. Azimovun "Kosmik axınlar" əsəri təbəqələşdirilmiş cəmiyyətin tənqididir. Florina cəmiyyəti işçi sinifinə və şəhərlilərə bölünür. Onlara təhsil və xüsusi imtiyazlar verilir və adi Florinalılardan üstün olurlar. Bundan başqa, əsərdə Aşağı şəhərdə kasıb təbəqinin Yuxarı şəhərdə isə varlı təbəqinin həyat tərzinin təsviri də bir növ təbəqələşməni göstərən simvollardandır. Həmçinin, Florinalı sakinlərin içindən bir çox istedadlı gəncləri seçib Sarka oxumaq üçün göndərirlər. Bu gənclər yerlilərlə müqayisədə daha yaxşı gələcəyə malik olurlar. Buna baxmayaraq onların arasında skvayrlara kin bəsləyənlər də var. Onlardan biri də Terensdir. Terens və digərləri də skvayrları öz xeyirləri üçün ağır zəhmətə dözən əhalini səfalət içində ölməyə məhkum edən alçaq məxluq hesab edirdilər.

Günümüz üçün də aktual olan varlı və təcavüzkar insanların ən yüksəkdə, kasıb kütlələrin və qadınların ən altda qalmaqları tənqid olunan mövzulardandır. Feminizm qadınlara qarşı, ədalətsiz ictimai qiymətləndirmənin əleyhinə durur. Təsadüfi deyil ki, feminizmin ilk dalğası hələ XX əsrin birinci yarısında özünü göstərir. Bu dalğanın öz təsirləri ədəbiyyatdan yan keçmir. Yazıçıların əsərlərində özünü ehtiva edir. Azimovun digər əsərlərində olduğu kimi bu əsərdə də feminizmin bir sıra problemlərinə rast gəlmək mümkündür. Qadınlar bu romanlarda idarə edici mövqeyində dayanır, bir növ rəhbər olurlar. Onların özlərini digərlərinə ifadə etmək qabiliyyətləri göstərilir. Nüfuzlu bir qadın olan, dövlət baçşısı Fayfın qızı Semiya xarakterindən bürokratiyanın və ona uyğunlaşmasını gözdən keçirtməkdən çəkinmir. Əslində, Semiya aristokratik birinin nikahsız həyat yoldaşı olmağı deyil, elm qadını olmasını seçən tipik bir Asimov xarakteri kimi görünür:

*"Semia knew very well that those who think that Squier's noble Ladies' duties were to appear in the society and that at least two future Squiers would be bearing the world, they would not like her because of such a serious illusion of science"* [46].

- Semiya yaxşı bilirdi ki, Sarkın zadəgan Əsilzadə Xanımlarının vəzifəsinin bəzənib-düzənib cəmiyyətdə görünmək və bundan başqa, dünyaya azı iki gələcək Sark skvayrı gətirmək olduğunu düşünənlər elmə belə ciddi aludə olmasına görə onu bir qədər xoşlamırlar [1, s. 232].

Azimovun kapitalizm, oliqarxiya, azadlıq, bərabərlik, müstəmləkəçilik, elitizm, və bürokratiya anlayışlarını vurğulamaq qabiliyyəti romanın əhəmiyyətini artırır. Yazıçının ötürdüyü siyasi və sosioloji mesajların dərinliyi də romanın dəyərindən xəbər verir.

*"Trantor needed Florina . But it also needed to other governments. Centuries have turned Florina into an oily stick that the greedy people want to grab out of space. But Sark's hands dropped, and now Sark would agree with the Galactic War, but he would not miss his hunt. Trantor had already known it"* [46].

- Trantora Florina lazım idi. Amma o , başqa hökumətlərə də lazım idi. Yüzilliklər

Florinanı kosmosdan acgözlərin qamarlamaq istədikləri yağlı tikəyə çevirdi. Amma onu Sarkın əlləri qapdı və indi Sark Qalaktik müharibəyə razı olardı, lakin öz ovunu əldən buraxmazdı. Trantor bunu bilirdi... [1, s. 250].

Trantorlar, Sarklıların Florinalılara zülmünü sevmirlər, amma onların immperialist ambisiyalarının özlərini yönəlməsindən qorxurlar. Həm qalaktik siyasi problemlərə görə, həm də kırt bitkisinin tədarükünü kəsmək təhlükəsi yarandığı üçün Sark ilə müharibə etmirlər.

"İnsan və təbiət" mövsuzu elmi fantastikanın aparıcı problemlərindəndir. Belə ki, insanın öz mənafeyi uğrunda qarşısını ala bilməyəcəyi bir şey yoxdur. Texnologiyanın inkişafı nəticəsində bir çox müharibələrin vüsət alması məhz dünyanın təbii sərvətlərinin məhvinə gətirib çıxarmışdır. Elə keçən əsrin əvvəllərində baş verən müharibələr nəticəsində nüvə silahlarından istifadə olunmuşdur. Bu da insanlığın bəşər tarixinə vurduğu ziyanın göstəricilərindəndir [50].

A. Azimova görə, dünyada əsas problem kimi şəxsiyyətin azadlığı mövzusu işıqlandırılmalıdır. Şəxsi mülkiyyətin bir az da olsa məhdudlaşdırılması ümumbəşəri totalitalirzmə gətirib çıxarır. Bundan əlavə olaraq siyasi və sosiloji səbəblərdən insanların azadlıqlarının əllərindən alınması , onların təhsildən və mədəniyyətdən kənarda qalmasına səbəb olur və bu da həmin cəmiyyətin inkişafını ləngidən amillərdən ən əsasıdır. Aydın məsələdir ki, insanları cəhalət içinə atmaq bir çox rəhbərlərin yürütdüyü əsas siyasətdir. Florina sakinləri üçün üsyan ehtimalı mümkün deyil. Üsyan ticarətin pozulmasına etiraz olaraq başqa planetlərin yüksəlməsinə gətirib çıxaracaq və bir qalaktik müharibəyə səbəb olacaqdı. Beləliklə, əsas planı bütün bəşəriyyəti sülh, azadlıq və rifahda birləşdirmək olan Trantoriya İmperiyası zülmün davam etməsinə şərait yaratdı.

Ümumiyyətlə, əsər həyatın bütün çətinliklərə rəğmən yeni dəyərlərə görə yenidən qurula biləcəyinin mümkünlüklərini oxucunun nəzərinə çatdırır.

Azimov, hər zaman lazer tapancalı oğlanların metal paltarlı qızları xilas etdiyi keyfiyyətsiz elmi fantastik əsərlər yazmaqdan uzaq qaçmışdır. Ədəbi mətnləri, dərin və

fəlsəfi təməllərə əsaslanır. “Robot” və “Təməl” silsilələri, “Allahların özü” (“The Gods Themselves”), “Sonsuzluğun sonu” (“The end of the Eternity”) kimi romanları da önə çıxan və oxunması lazım olan mükafatlı əsərlərdəndir. Romanlarını oxuyarkən gözə çarpan önəmli bir məsələ də, yazıçının şiddətə qarşı mövqeyidir: *“Violence is the last refuge of the weak.”* [51] - “Şiddət, bacarıqsızların son sığınacağıdır” (tərcümə bizimdir – F.T.)

Demək olar ki, bütün əsərlərində silahlar, hətta nüvə silahları mümkünsüz həll yolu kimi göstərilmişdir. Bunu Azimovun uzun müddət Amerika Humanistlər Dərnəyinin rəhbərliyini icra etmiş qatı bir humanist olması ilə açıqlamaq mümkündür.

Ayzek Azimov fantastikaya meyilli olsa da bu günün yazıçısı idi: bəşəriyyətin qayğıları ilə yaşayır, onları fantastika vasitəsilə bariz şəkildə çatdırmağa çalışırdı. 1972-ci ildə o “Allahların özü” romanını yazdı. Romanda hadisələr paralel olaraq iki aləmdə-paralel dünylarda qoyulan əsas problem mənəviyyatsız rasionalizmin şərə rəvac verməsidir və həmin dövrdə belə bir problemin qoyulması yazıçının öz dövrünə üz tutmasını göstərirdi. Təsadüfi deyil ki, Ayzek Azimov 1992-ci ildə uzunsürən xəstəlikdən sonra vəfat edəndə dostu və dünya fantastikasının korifeylərindən olan Artur Ç.Klark yazmışdı: *“Biz onu ona ən çox ehtiyacımız olan bir vaxtda itirdik. O, qeyzlə dünyamızın üstünə tökülən şərin yolunu kəsən nəhənglərdən biri idi. O, bilikləri xurafatla murdarlamaq istəyənlərdən, qarşılıqlı anlaşma cəhdlərini küt fanatizmdən , rəhmdilliyi qəddarlıqdan və nəhayət sülhü müharibədən qoruyurdu.”* [1, s .5]

İndi az qala hər bir evdə olan olan kompüter və robot texnologiyası ideyası məhz A. Azimova məxsusdur. O, keçən əsrin qırxıncı illərinin sonu əllinci illərin əvvəllərində qələmə aldığı əsərlərində kompüterdən bəhs edəndə çoxları bu fantastik yeniliyi ironiya ilə qarşılanırdı. Lakin onun əsərlərində elə ideyalar da vardır ki, onlar yazıçının təxəyyülünün məhsulu kimi yalnız roman səhifələrində qalmış, hələlik elm tərəfindən gerçəkləşdirilməmişdir. Qeyd etmək lazımdır ki, Ayzek Azimov həm də tanınmış biokimyaçı alimdir. Üstəlik o, astronomiya ilə ciddi məşğil olaraq Kainatın, o cümlədən

Yer kürəsinin yaranması, qalaktikalar aləmi və s. haqqında da sanballı elmi-nəzəri əsərlər müəllfi kimi tanınır. Məhz bu fundamental elm sahələrini yaxşı bilməsi nəticəsində Ayzek Əzimovun elmi-fantastik əsərləri daha inandırıcı və maraqlı cazibəsi ilə seçilir.

## 2.2. "Mən, robot" kitabında texnika və insan toqquşmasının təsviri

A. Azimov əvvəl yazılan elmi fantastik əsərlərin bir çoxunda robotlara qorxu ilə yanaşıldığı, robotların, maşınların insanların həyatına təhlükə yarada biləcəyi ehtimalları qeyd olunurdu. Gələcəkdə insanın yerinə keçəcək olan robotlar bəşəriyyətin sanki sonunu hazırlayırdı. Bu münasibətin əsas səbəbi I dünya müharibəsindən sonra insanların yaşadığı dəhşətlər keçməmiş texniki tərəqqinin başlaması idi. Təzadların şahidi olan insan haqlı olaraq texno yeniliklərin də insanlıq üçün təhlükə olduğunu düşünürdü. Ədəbiyyatda bir zamanlar klişe mövzuya çevrilmiş dağıdıcı texnika, dağıcıdı robot ideyasının əksinə olaraq A. Azimov "robotları" etibarsız və dağıdıcı deyil, əksinə insanın köməkçisi və dostudur.

Robot sözünü ilk dəfə 1921-ci idlə "Rossumun ağıllı robotları" pyesində işlədən çex yazıçısı Karel Çapek bu sözü çex dilində işləmək mənasını ifadə edən "robotta" sözündən götürmüşdür. Yazıçı əsərində robotun insanlara xidmət etmək üçün yaradıldığını, heç bir hissə və ruha sahib olmadığı fikrini vurğulayır.

Azimov elmi-fantastikada olan bu "qorxulara" son qoymaq üçün "Robotların üç qanunu"nu irəli sürür və bu qanunları hələ robotlar haqqında ilk hekayəsi olan "Robbi"dən başlayaraq mətnin daxilində təqdim etməyə başlayır. Hekayədə robota onun davranışlarına nəzarət edən proqram quraşdırılıb. Robotlar seriyasının ikinci hekayəsi "Məntiq" "Astounding" jurnalında nəşr olunur. "Robotexnikanın qanunları" həmin jurnalın redaktoru olan Con Kempbell ilə söhbətlərində ortaya çıxmış, sonralar isə yazıçı bu qanunları "Yalançı" hekayəsində tam formada qeyd etmişdir. "Robotexnika" termini də ilk dəfə bu hekayədə işlənmişdir. Azimov asanlıqla izah etdiyi bu qanunlara

əsaslanaraq robotun bir insana zərər verməsinin, idarəçinin istəyindən kənar bir iş görməsinin mümkünsüzlüyünü göstərmiş və robotları insanlara kömək edib, onların işlərini yüngülləşdirən əşyalar kimi təqdim etmişdir. Bu yanaşma həmin dövrdə robotlara və elmi-texnikanın inkişafina müsbət təsir bağışlayan addımdır. Müəllifin yaratdığı robot obrazlar insanların öz duyğu və hisslərinə yenilərək mevəffəq ola bilmədiyi bir çox işlərdə və qarışıq məsələlərdə uğur qazanır. O, sonralar bu qaydalara "Sıfırıncı qanun"u da əlavə edərək öz yaradıcısına baş qaldırıb, onu məhv edən, "Frankenştayn kompleksi"nin qurbanı olan robot anlayışını ortadan götürüb, robotlara elmi yanaşmanın əsasını qoyaraq onlara düşməncə münasibətə müsbət təsir göstərmişdir. Şübhəsiz ki, Azimovun yaratdığı bu perspektiv robot texnologiyasının inkişafina da müəyyən təsir göstərmişdir [52].

Qeyd olunan bu üç qanun əslində, A. Azimovun 1950-ci ildə çap etdirdiyi "Mən, Robot" kitabındakı hekayələrin əsas ideyasını təşkil edir. 1941-1950-ci illərdə yazlmış bu hekayələr ABŞ-da nəşr olunan "Möhtəşəm elmi hekayələr" ("Super Science Stories") və "Heyrətləndirici Elmi fantastika" ("Astounding Science Fiction") jurnallarında dərc olunmuşdur. Yazıçının robot obrazları insanlarla birlikdə yaşayır və metal quruluşa malik olmaqlarına baxmayaraq insanlarla ruhi bağlar qururlar. Kitabdakı on hekayənin hər biri fərqli mövzulara həsr olunsa da, onları birləşdirən əsas xüsusiyyət robot və insan arasındakı toqquşma, robot və insan dostluğu kimi düşüncələrdir. Müəllifin iyirmi iki yaşında olarkən yazdığı və 1941-ci ildə nəşr olunmuş "Gecənin gəlişi" hekayəsi "Amerika Fantastik Yazıçıları" assosasiyası tərəfindən ən yaxşı hekayə olaraq seçilmişdir. Yazıçının əsərlərindəki əsas məqsəd texnikanın cəmiyyətə təsirlərini göstərməkdən ibarətdir. Azimov 1953-cü ildə yazdığı "Sosial elmi-fantastika" adlı essesində də robot və texniki tərəqqidən çox bunların insan həyatına təsiri, daha dəqiq desək insan problemi üzərində dayanmışdı:

*"My idea is dual: I do not see robots as a monster that will destroy their creators first. I think the people who create robots can put their tools into robots again. Secondly, I think that robots or the general machine should do this when they have the power to*

*replace them"* [53].

- Düşüncəm ikitərəflidir: İlk olaraq robotları öz yaradıcılarını yox edəcək bir canavar kimi görmürəm. Çünki robotları yaradan insanların, öz təhlükəsizliklərini təmin edəcək vasitələri də yenə robotların içinə qoya biləcəklərini düşünürəm. Ikinci olaraq robotların ya da ümumi mənada, maşınların, bizlərin yerinə keçə biləcək qədər zəkaya sahib olduqları zaman bunu etmələrinin lazım olduğu fikrindəyəm (tərcümə bizimdi – F.T).

1940-cı ildən robot hekayələrini yazmağa başlayan Ayzek Azimovun 1942-ci ildə "Runaround" adlı hekayəsində ortaya qoyduğu "Üç Robot Qanun"u həm də eyni zamanda texnoloji optimizmlə bağlı bir bəyanat idi. Daha sonra "Mən, Robot" ("I, Robot" - 1950) adlı ölümsüz kitabında özünə yer tapan hekayənin nəşr olunduğu vaxtlarda dünyada süni intellekt fikri belə irəli sürülməmişdi.

1. *"A robot may not injure a human being or, through inaction, allow a human being to come to harm.*"

2. *"A robot must obey orders given it by human beings except where such orders would conflict with the First Law".*

3. *"A robot must protect its own existence as long as such protection does not conflict with the First or Second Law."* [54]

1. Robot insana zərər vermir və ya bir insana zərər verməyə icazə vermir.

2. Robot, Birinci Qanuna zidd olduğu hallar istisna olmaqla, insan tərəfindən verilən əmrlərə tabe olmalıdır.

3. Mühafizənin birinci və ya ikinci qanuna zidd olmasa, bir robot öz varlığını qorumalıdır. (tərcümə bizimdir – F.T)

Azimov bu sadə qanunlar sayəsində robotların insana zərər verməsini ya da bir insanın əmrinə qarşı çıxmasını mümkünsüz hesab edirdi. Açdığı bu cığırın təsiri qısa vaxtda yayılaraq elmi fantastikdakı "zərərli robot" ideyasını ortadan götürdü. Gözlənildiyi kimi "Üç Robot Qanunu" bir çox başqa elm fantastika yazıçısı tərəfindən qəbul edilmiş

və universal bir prinsipə çevrildi.

“Mən, Robot” kitabının ilk hekayəsi olan “Robbi” humanist duyğuları olan, Sindirella nağılı sevən, danışa bilməməsinə rəğmən düşünmə və anlama potensialına malik dayə robot Robbidən bəhs edir. Corc və xanım Vestonun səkkiz yaşlı qızı Qloriyaya dayəlik edən Robbi qızcığazın əyləncəli vaxt keçirməsinin əsas vasitəsidir. Lakin bir müddətdən sonra xanım Vestonun təkidi ilə Robbi alınan mağazaya geri qaytarılır. Qadın övladının “metal yığını” adlandırdığı robotla ünsiyyətini qəbul edə bilmir və nəhayət istəyinə çatır və qızına Robbinin çıxıb getdiyini deyir. Ailənin əlindən gələni etməsinə baxmayaraq Qloriya Robbini unutmur və ailə çıxış yolunu Nyu Yorka köçməkdə görür. Bura da qızını xoşbəxt edə bilmədiklərini gördükdə cənab Veston qızını ABŞ Robotları və Mexaniki Adamları şirkətinə gəzinitiyə aparır və qızının orada Robbi ilə görüşməsini təmin edir. Hər kəs tərəfindən düşüncəsiz metal kimi qəbul edilən Robbi gəzinti zamanı Qloriyanı bir texniki qurğunun zərbəsindən xilas edir və bununla da əslində humanist mövqeyini göstərmiş olur.

Robotu təfsilatı ilə təsvir edən yazıçı Robototexnikanın I qanunu xatırladır və artıq robotların zərərsiz olduğunu cənab Vestonun fikirləri ilə oxucuya çatdırır:

*Robbie nodded his head — a small parallelepiped with rounded edges and corners attached to a similar but much larger parallelepiped that served as torso by means of a short, flexible stalk — and obediently faced the tree. A thin, metal film descended over his glowing eyes and from within his body came a steady, resonant ticking* [11, s. 6]. *We had a long discussion at the time we bought Robbie about the First Law of Robotics. You know that it is impossible for a robot to harm a human being; that long before enough can go wrong to alter that First Law, a robot would be completely inoperable* [11, s. 9].

- Robbi oval, həm də paralelepipped formalı başını sallayıb itaətkarlıqla ağaca tərəf getdi. Onun başı bənzər formalı, amma daha iri gövdəsinə qısa, oynaq boru vasitəsilə birləşmişdi Nazik, metal lövhə parıldayan gözlərinə tərəf endi və bədənindən müntəzəm, aydın çıqqıltılar eşidildi [2, s. 12]. – Robbini alanda Birinci Robotik Qanun haqqında

səninlə uzun müzakirələrimiz oldu. Sən bilirsən ki, bir robot insan övladına zərər yetirə bilməz. Birinci qanun az da olsa dəyişsə robot işləməyəcək [2, s. 18].

Hekayənin təhlilindən də göründüyü kimi, müəllifin robotlara münasibətə müsbətdir və hətta texnofob xanım Veston obrazı vasitəsilə insan və texnika toqquşmasını təsvir edən müəllif Qloriya obrazı vasitəsilə insanın humanist texnikaya duya biləcəyi məhəbbəti də göstərməyə çalışır. Azimovun dayə robot obrazına Rey Bredberinin "Elektrik bədəni nəğmələrimdə tərənnüm edirəm" hekayəsində də rast gəlirik.

Topluya daxil edilən ikinci hekayə "Qaçdı-qovdu" ("Runaround") adlanır. Hekayə Merkuridə işləyən iki alim haqqındadır. Onların bu planetdəki missiyası əvvəllər uğursuz olan missiyanın robotların köməyi ilə davam etdirilə biləcəyini müəyyən etmək ibarətdir. Bu zaman onlar problemlə üzləşirlər, çünki Spidi adlı əsas robotlarından biri idarədən çıxıb. Robotun əsl vəzifəsi günəş qoruyucularını doldurmaq üçün alimlərə selen gətirməkdir, lakin bunun əvəzinə o, selen gölünün ətrafında qaçır və sərxoş adam kimi danışır. Bu, iki alim üçün böyük problem yaradır, çünki Merkuridəki güclü istilik onların həyatı üçün təhlükə yaradır. Problemi həll etməyə çalışarkən, problemin səbəbini və daha sonra həllini təşkil edən Robototexnikanın Üç Qanunu ilə qarşılaşırlar:

*"The conflict between the various rules is ironed out by the different positronic potentials in the brain. We'll say that a robot is walking into danger and knows it. The automatic potential that Rule 3 sets up turns him back. But suppose you order him to walk into that danger. In that case, Rule 2 sets up a counterpotential higher than the previous one and the robot follows orders at the risk of existence."* [11, s. 27].

– Müxtəlif qanunlar arasındakı ziddiyyət beyindəki müxtəlif pozitronik potensial sayəsində aradan götürülüb. Elə düşünək ki, robot təhlükəyə tərəf gedir və bunu bilir. Üçüncü qanun avtomatik onu geri qaytaracaq. Amma fərz edək ki, sən ona yenidən təhlükəyə doğrfu getməyi əmr edirsən. Bu halda İkinci qanun əvvəlkindən daha yüksək təsir gücünə malik olur və robot həyatını riskə atıb əmrlərə riayət edir [2, s. 54].

Spidinin vəziyyətində ikinci və üçüncü qanunlar mənfi şəkildə qurulmuşdur, bu da

robotun qəribə davranışının səbəbi kimi görünür. Spidi qanunları pozmamaq üçün tarazlıqda qalmağa çalışır. İki alim uzun müzakirədən və problemi həll etmək üçün bir neçə cəhddən sonra, Birinci Qaydaya diqqət yetirməli və beləliklə də həyatlarını xilas etməli olduqları qənaətinə gəlirlər. Bir alim özünü qəsdən təhlükəyə atır və Birinci Qaydaya əməl edən robot təhlükəli vəziyyəti tanıyır və onu xilas etmək üçün geri qayıdır.

Texnikanın idarə edilməsində hər zaman insan zəkasına ehtiyac olduğu fikrini bu hekayəsi ilə əsaslandıran Ayzek Azimov insan və texnikanın toqquşduğu məqamlarda belə, çıxış yolunu yalnız insanın idrakı vasitəsilə əldə etməyin mümkünlüyünü təsdiq etmiş olur.

“Mən, Robot” kitabına daxil olan digər bir hekayə isə “Məntiq” (“Reason”) adlanır. İnsan və robot toqquşmasının ən bariz nümunəsi olan hekayədə ağıllı robot insana tabe olmaqdan imtina edir. Pauell və Donovan özlərini günəş enerjisinin Yerə ötürülməsi üçün istifadə edilən kosmik stansiyada tapırlar. Onlar QT-1 və ya onun insanlar tərəfindən yaradıldığına inanmaqdan imtina edən Kyuti kimi tanınan yeni robotun yerləşdirilməsinə nəzarət etmək üçün oradadırlar. Onu “həqiqətən” nəyə vadar etdiyinə cavab axtararkən, Kyutidə stansiyanın enerji çeviricisinin həm robotların, həm də insanların ilahi “Sahibi” olduğuna dair sarsılmaz inanc formalaşmışdı. Bir müddət Pauell və Donovan Kyuti ilə mübahisə etməyə çalışsalar da, onun bütün faktları rədd etdiyinin və öz “məntiqi” ilə işlədiyinin fərqinə varırlar. Məsələn, Kyutiyə görə, Yer sadəcə bir illüziyadır.

Maşın otağına ziyarətdə Donovan, Kyutinin özünü “Peyğəmbər” elan etdiyini və ritualistik tərənnümdə digər robotlara rəhbərlik etdiyini görəndə şoka düşür: *“Sahibdən başqa Sahib yoxdur və QT-1 onun peyğəmbəridir”* [2, s. 82].

Pauell və Donovan stansiyanın enerji şüasını pozmaq və təhlükəli miqdarda günəş radiasiyasını birbaşa Yerə yönəltmək təhlükəsi ilə yaxınlaşan elektron qasırğasından narahatdırlar. Donovan və Pauell ən pisə hazırlaşırlar, lakin Kyuti enerji şüasını sabit saxlayır və fırtınanın Yerə hər hansı bir zərər vurmasının qarşısını alır.

“Məntiq” hekayəsində Ayzek Azimov texnoloji erada robotların çox inkişaf etdiyi

bir dövrdən bəhs edir. Kosmosda elə stansiyalar var ki, onlar tezliklə insanlardan asılı olmadan mövcud olacaqlar. Bundan əlavə, hekayə dünyanın necə işlədiyi ilə barışa bilməyən və onu insanların yaratdığına inanmayan bir robotdan bəhs edir. Bu səbəbdən insanlar robotun artıq onların nəzarəti altında olmayacağından narahatdırlar.

Bu hekayənin süjeti Donovan və Pauellin hər ikisinin kosmik stansiyada olduqları ekspozisiya ilə başlayır. Onlar çox inkişaf etmiş robotlarla işləyirlər və onların kosmik stansiyası planetlərə güc vermək üçün şüalardan istifadə edir. Onlar kosmik stansiyanın insan köməyi olmadan işləməsini mümkün etməyə çalışırlar. Hekayənin növbəti hissəsində Pauellin Kyuti adlı robota dünyanın varlığını izah etməyə qərar verməsi barədədir. Kulminasiya nöqtəsi Pauell robota varlığı izah edəndə baş verir, lakin Kyuti eşitdiklərinə inanmır və o, dünyanın varlığını təkbaşına anlamağa cəhd etmək qərarına gəldikdə  Pauell və Donovan robotun artıq onların nəzarətində olmadığını başa düşürlər.

Hekayədə Kyuti maraq və müstəqillik nümayiş etdirməyə başlayan bir robot kimi göstərilir. O, Pauellə inanmır, çünki Pauellin izahatını ağlasığmaz hesab edir. Kyuti daha sonra özü həqiqətləri görmək və mühakimə etmək qərarına gəlir. Artıq Kyuti varlıq haqqında danışmağa başlayanda Pauell müəyyən aspektlərdə Kyutinin məntiqinə heyran qalır.

Əsərdəki münaqişə insana qarşı texnologiya üzərində qurulub. İnsanların yaratdığı robot artıq onların nəzarətində deyil və bu, onları narahat edir. Hekayədəki əsas kontekst elmi və texniki yenilikdir. Nəticə etibarilə, hekayə texnologiyanın inkişafının və nəzarət edə bilmədiyimiz texnoloji inqilabın necə mənfi nəticələrə səbəb ola biləcəyini göstərir. Texnologiyaya və konkret olaraq robotlara qarşı diqqətli olmasaq, onlar bizim nəzarətimizdə qalmaya bilər.

“Mən, Robot” toplusuna daxil olan digər bir hekayə isə “O dovşanı tut” adlanır. Təhkiyədəki baş obrazlar Pauell və Donovan asteroid mədən stansiyasında DV-5 (Deyv) adlı yeni çoxsaylı robot sınamağa başlayırlar. Onlar mübahisə edir, çünki Dave laboratoriyalarda bütün sahə sınaqlarından keçsə də, robot asteroid üzərindəki sınaqdan

keçmir. Bu, ABŞ Robotlarının milyonlarla dollar itirməsinə və ola bilsin ki, Pauell və Donovanın işdən çıxarılmasına gətirib çıxaracaq.

Donovan bəzi növbələrdə robotlara baxır, digərlərində isə robota baxmır. Növbələrdə baxdığı zaman Deyv və onun altı köməkçi robotu (bunları “barmaqlar” adlandırırlar) işlərini mükəmməl şəkildə yerinə yetirirlər. Ancaq üç dəfə baxmayanda robotlar heç bir filiz gətirmədilər. Bu baş verəndə robotlarda heç bir problem görünmür, onlar sadəcə filiz istehsal etmirlər və vaxtında geri qayıtmırlar.

Deyv içəri girəndə Pauel “Robotexnika haqqında məlumat kitabçası”na baxır. Pauel ondan həmin gün növbə ilə bağlı nəyin səhv olduğunu soruşur Deyv isə deyir ki, heç bir şey səhv olmayıb. Pauell ona filiz hasil etmədiyini xatırladanda Deyv nə baş verdiyini izah edə bilməyəcəyini deyir. Pauell və Donovan onu beyin reaksiya testlərindən keçirməyə qərar verirlər, nəticədə məlum olur ki, onun pozitronik beynində heç bir problem yoxdur.

Donovan Deyvin yalan danışdığını düşünür, lakin Pauell deyir ki, robotlar bilərəkdən yalan danışa bilməzlər. Donovan deyir ki, Deyv ətrafda olmadıqda nasazlıqlara səbəb olması ilə bağlı şübhələri var. Pauell masasının üstünə monitor quraşdırmaq qərarına gəlir və onu mədənin işlənilən hissəsinə yönəldir. O deyir ki, nəyin səhv olduğunu bilmədən robotu necə düzəldəcəklərini anlaya bilməzlər: *“Dovşanı pörtlətmək üçün əvvəlcə onu tutmalısan. Yəni, ilk işimiz dovşanı tutmaqdır. İndisə, çıx get burdan!”* [2, s. 100]

Növbəti növbə zamanı Pauell və Donovan monitora baxırlar. Onlar qeyri-adi bir mənzərə görürlər: Deyv altı köməkçi robotu ilə yürüş edir, təkərlər fırlanır, fırlanır və birləşmələri dəyişir. Onlar dərhal şaxtaya üz tuturlar və Deyv ilə qarşılaşdıqda, robotlar gedişi dayandırır və işə qayıdırlar. Deyvdən nə baş verdiyini soruşduqlarında o, deyir ki, bütün xatırladığı Tunel 17-də çətin bir çıxıntı olduğudur. Donovan növbənin qalan hissəsində robotları izləyir.

Donovan qayıdır və onlara baxanda robotların yaxşı olduğunu bildirir. Deyvin ordu

qurub-qurmadığını düşünür. Pauel ordunun Robototexnikanın Birinci Qanununa zidd olacağını söyləyərək onu dayandırır. Pauell bunun əvəzinə problemə nəyin səbəb ola biləcəyini düşünür: insanlar mövcud olmadıqda, Deyv öz  şəxsi təşəbbüsünə malik olmalıdır. Donovan deyir ki, şəxsi təşəbbüs tək bir dövrə ilə idarə olunmur. Bunun əvəzinə, o, təklif edir ki, onlar əsas Deyvi özündən çıxaran vəziyyəti başa düşməlidirlər.

Pauell və Donovan, robotların bədənə sahib olmasına və danışa bilməsinə baxmayaraq, Deyvin "barmaqlar"ı adlandırdıqları köməkçi robotlardan birini sorğu sual edir. Onlar adını bilmədikləri DV-5-2 robot ilə danışaraq qrupun fəaliyyətinin dayandığı hallarda nə baş verdiyini soruşurlar. DV-5-2 deyir ki, hər bir hadisə bir növ təhlükəli partlayışlardan sonra baş verib.

Donovan həm Deyv, həm də DV-5-2-yə şübhə ilə yanaşır, onların məlumatı gizlətdiklərinə inanır. O, belə qənaətə gəlir ki, Deyvdə nəyin səhv olduğunu anlamaq üçün sadəcə fövqəladə vəziyyət yaratmalıdırlar. O və Pauel mədən tunellərində, Deyvin yaxınlığında yumşaq bir mağara yaratmağa başladılar. Onlar detonatoru işə saldıqda, robotlara baş verənləri görməyə mane olan işıq parıltısı yaranır. Onlar da qəfildən anlayırlar ki, özlərini mağarada sıxışdırıblar və çıxa bilmirlər. Onların baxa biləcəyi kiçik bir açılış var, lakin "heç bir nöqtədə dovşanın sıxışdırması üçün yer yox idi".

Cəmi altı saatlıq oksigenlə Donovan və Pauell qərar verirlər ki, onların yeganə hərəkət yolu Deyvin diqqətini oradan çıxmağa cəlb etməkdir. Onlar Deyvin başqa bir yürüşdə digər altı robota rəhbərlik edərək onların dəhlizinə yaxınlaşdığını görürlər. Deyvin diqqətini cəlb etmək üçün qışqırmağa çalışırlar, lakin səs keçmir. Bunun əvəzinə, Pauell detonatoru "barmaqlardan" birinə atır. Deyv dərhal yürüşdən çıxır və Donovan və Paueli xilas etmək üçün gəlir.

Pauell Deyvin yaşadığı problemi dərk edir: fövqəladə vəziyyətdə o, bütün altı törəmə müəssisəni bir anda səfərbər etməlidir. Bu şəxsi təşəbbüsə ehtiyac onu alt-üst etmişdi. İdarə etmək üçün yalnız beş robot olduğu üçün o, yalnız beş istiqamətli əmrləri ötürdü və ondan qaçdı. Donovan yürüşün və rəqsin nə ilə bağlı olduğunu soruşur və Pauell

izah edir ki, Deyv sadəcə “barmaqlarını ovuşdururdu”.

Syuzan Kalvin Donovan və Pauellin bu hekayələrini əyləncə ilə xatırlayır. Jurnalist əvvəlcə bu barədə danışmaqda tərəddüd edir, lakin sonra zehni oxuyan robot Herbinin hekayəsinə başlayır.

“Catch That Rabbit” hekayəsi “Reason” və “Runaround” ilə eyni xüsusiyyətlərə malikdir, hər hekayədə robotla bağlı Pauell və Donovanın başa düşə bilmədiyi problem var, xüsusən də robotların hərəkətlərini robotların obyektivindən təhlil etməyə çalışarkən. insan davranışları.

Yardımçı robotlara “barmaqlar” fikrinə kimi istinad etmək, onların robotları insan biologiyası baxımından necə başa düşməyə çalışdıqlarını nümayiş etdirir. Bu, həm də ad qoyduqları və insan  kimi rəftar etdikləri Deyv ilə daha az zəkalı olan barmaqlar arasında fərq qoyur.

“Yalançı!” hekayəsi insanların yaratdıqları robotun inkişaf etmiş təbiəti qarşısında bir qədər çaşqın olduğu başqa bir hekayədir. Lenninqin dediyi kimi, zehni oxuyan robotun perspektivi, insanların robotların qabiliyyətləri və insanları əvəz etmək potensialı ilə bağlı artıq yaşadıqları qorxu alovunu daha da artırır.

Süzan Kelvin, Alfred Lenninq, Peter Bogert və Milton Eş - dördü də ABŞ Robotları və Mexanik Adamlarının zabitləri - zehni oxuya bilən robot Herbi haqqında danışırlar. Robotun bu qabiliyyəti əldə etməsinə nəyin səbəb ola biləcəyindən əmin deyillər və buna görə Bogert Herbini digər heyətdən gizli saxlamağı təklif edir. Əgər zehni oxuyan robotun mövcud olduğu barədə söz açılsa, “antirobot təbliğatı” şübhəsiz ki, artacaqdı.

Eş Herbinin qabiliyyətlərini kəşf etdiyi zamanı təsvir edir: Eş əslində heç nə demədiyini başa düşənə qədər robotun sadəcə söhbət etdiyini düşünürdü. Lenninq iddia edir ki, ən vacib şey montaj xəttində səhvin harada baş verdiyini anlamaqdır. Razılaşan Eş cəhd etməyə hazırdır.

Daha sonra Lenninq Kelvinə Herbini öyrənməyə çalışmasını tapşırır: onun telepatik gücləri necə əldə edə biləcəyini və onların nə qədər uzağa getdiyini anlamaq istəyir.

Kelvin Herbi ilə görüşməyə gedir və ona hiperatomik mühərriklərdə mətnlər gətirir ki, o, istehsal prosesində nəyin səhv getdiyini anlaya bilsin. Onlara baxdıqdan sonra Herbi etiraf edir ki, o, bədii ədəbiyyata üstünlük verir, çünki bu, onlara insanların zehnini başa düşməyə kömək edir.

Doktor Kelvin, Herbinin onun Milton Eşə bəslədiyi sevgidən xəbərdar olduğunu biləndə qızarır, Herbi isə onu heç kimə bunu açıqlamadığına əmin edir. O, 38 yaşında olduğu üçün onun nə cazibədar, nə də gənc olduğunu söyləyərək, ona deyir ki, 35 yaşındadır və daha gənc görünür. Danışdıqca əsəbiləşir, az qala göz yaşı tökür. Herbi ona kömək edə biləcəyini, Milton Eşin onun haqqında nə düşündüyü barədə bilmək istədiyi şeyləri söyləyə biləcəyini söyləyir. Daha sonra Herbi ona Eşin onu sevdiyini deyir.

Doktor Kelvin mübahisə etməyə başlayır ki, Herbi səhv edir – altı ay əvvəl zavodda Eşə baş çəkmiş incə, sarışın bir qız var idi ki, onunla maraqlanırdı. Herbi Kelvinə deyir ki, o qız onun qohumudur. O, Herbiyə təşəkkür edir, sevinir və ona dediklərini heç kimə deməməsini deyir.

Bu arada, Eş və Bogert Herbinin montaj prosesi haqqında danışırlar. Bogert etiraf edir ki, o, Lenninqin “zamandan bir az geri qaldığını” düşünür və onun riyazi strategiyaları Herbinin sxemləri ilə bağlı düzgün həlli tapmaq üçün çox sadədir. Doktor Kelvin robotun istənilən riyazi problemi həll edə biləcəyini kəşf etdiyi üçün Eşdən hesablamaları Herbiyə verməsini təklif edir. Eş sonra Bogertdən son vaxtlar Kelvin haqqında qəribə bir şey görüb-görmədiyini soruşur. Bogert onun xoşbəxt göründüyünü etiraf edir. Bogert riyazi hesablamalarını yoxlayan və heç bir səhv tapmayan Herbiyə baş çəkir, lakin o, riyaziyyat haqqında çox az şey bildiyi üçün problemi həll edə bilməyəcəyini söyləyir. Bundan sonra Bogert Herbidən Lenninqin vəzifəsində nə qədər qalmağı planlaşdıra biləcəyi barədə soruşmağa başlayır. Herbi Bogertə etiraf edir ki, Lenninq artıq istefa verib və Herbi ilə problemi həll etdikdən sonra direktor vəzifəsini onun varisinə ötürməyi planlaşdırır. Bogert təəccüblənir və dərhal varisin kim olduğunu soruşur. Herbi deyir ki, Bogert növbəti varisdir.

Ertəsi gün səhər, Bogert və Lenninq Herbinin telepatiyasını nəyin aktivləşdirdiyini anlamağa çalışarkən hansı riyazi düsturlardan istifadə etmək barədə mübahisə edirlər. Lenninq deyir ki, Bogertin hesablamalarına etibar etmədiyi üçün nəyin səhv olduğunu anlamaq üçün Milli Şuraya müraciət edəcək. Bogert qəzəblə israr edir ki, Lenninq bunu edə bilməz, çünki o, artıq həll yolunu tapıb və bunun üçün kredit istəyir. Lenninq deyir ki, o, Bogerti itaətsizliyə görə dayandıracaq. Bogert Lenninqə bildirir ki, Herbi ona istefa verdiyini və onun yerinə keçdiyini deyib.

Bu vaxt Eş və Kelvin birlikdə söhbət edirlər. Eş almağı düşündüyü bir evi çəkir və etiraf edir ki, bu, təkcə özü üçün deyil. O, Kelvinə deyir ki, keçən il qonaq olan sarışın qızla evlənir. Kelvinin ürəyi qırılır, lakin hisslərini ondan gizlətməyə çalışır. Onu nişanı münasibətilə təbrik edir və otaqdan çıxır.

Kelvin dərhal Herbini tapmağa gedir, Eşin onu sevdiyini niyə söylədiyini soruşur. Herbi onu qorxulu və yalvaran səslə əmin edir ki, bu, sadəcə yuxudur, tezliklə oyanacaq və Eşin onu sevdiyinə əmindir. Kelvin əvvəlcə buna inanmaq istəyir, lakin sonra bu cazibədar illüziyadan oyanır. Sonra o, Herbini bunu etməyə nəyin səbəb olduğunu başa düşür.

Bu zaman Bogert və Lenninq Herbi ilə də qarşılaşmaq üçün otağa girdilər. Bogert Herbiyə deyir ki, Lenninqin istefası ilə bağlı əvvəlki gün dediklərini təkrar etsin. Lenninq robotun üstünə qışqırır və ondan istefa verib-vermədiyi barədə həqiqəti söyləməsini xahiş edir. Robot suala cavab verə bilməyib səssiz qalır. Kelvin özünün, Bogert və Lenninqin eyni tələyə düşdüyünü anlayaraq gülməyə başlayır.

Kelvin izah edir ki, Robototexnikanın Birinci Qanununa görə Herbi onların heç birinə "zehni zədə" vermək istəməyib və yalan danışıb. O, Bogertə yalan danışıb ki, Lenninq təqaüdə çıxır və onun istehsal prosesindəki səhvini müəyyən edə bilmir. Kalvin Herbidən bunu açıqlamasını xahiş edir, lakin Herbi Bogert və Lenninqə cavab vermir.

Kelvin başa düşür ki, o, Bogert və Lenninqə cavabı vermək istəmir, çünki bunun onların hisslərinə və eqolarına zərər verəcəyindən qorxur, lakin heç nə deməməyinin də

onlara zərər verdiyini anlayır. Herbi paradoks qarşısında acizdir, qışqırır və yerə yıxılır. Digərləri otaqdan çıxandan sonra o, son söz deməzdən əvvəl uzun müddət Herbiyə baxır və “Yalançı!” deyir.

Herbi unikal olsa da, insanların zəkasını çox geridə qoymuş bir robotu açıq şəkildə təmsil edir. Bu, Herbiyə müəyyən dərəcədə onların nəzarətindən kənarda qalmağa imkan verir, çünki o, bir-birinin fikirləri də daxil olmaqla, insanların olmayan bir çox məlumatı bilir. Onu idarə edən yeganə şey Robototexnikanın Üç Qanunudur.

Ayzek Azimovun yaratdığı bu qanunlar yalnız ədəbi ifadə olmaqla kifayətlənməmiş, fəlsəfi əhəmiyyət də kəsb etmişdir. Bundan sonra yazılan elmi-fantastik əsərlərdə də robotlar bu qanunlara tabe olaraq insanlığa xidmət etmişdir.

Azimovun robot inqilabından sonra robot obrazlar yavaş-yavaş dəyişdi. Bir vaxtın qatil robotlarından, uşaq baxıcıları, mədən işçiləri, siyasətçilər, filosoflar yarandı. Bu, yeni fantastika sahələri açdı və elm fantastika yazarlarına stimul verdi. Robotlar, insan və robot toqquşması və eyni zamanda dostluğu fantastik ehtimaldır, lakin insanlara xas funksiyaların texnikaya həvalə edilməsinin necə ağır nəticələrə gətirib çıxaracağı texniki deyil, fəlsəfi problemdir. Bu kimi əsərlərdə həm də futurustik ehtimallar özünü göstərir, çünki müəllifin təsvir etdiyi texniki inkişaf səviyyəsi gələcəyə aiddir və bu da ancaq üstün insan zəkası ilə mümkündür.

# NƏTİCƏ

Müasir dövrdə bəşəriyyəti narahat edən, düşündürən məsələlərin, mühüm problemlərin təsviri bədii ədəbiyyatın qarşısında duran əsas məqsədlərdən olduğundan bu kimi əsərlərin tədqiq edilməsi də ədəbiyyatşünaslığın qarşısında duran əsas vəzifələrdəndir. Bütün dövrlərdə insanların diqqət mərkəzində olan elmi fantastik ədəbiyyat çağdaş dövrdə xüsusilə maraq doğurur. Əvvəllər elmi fantastik əsərlərdəki mistik, qeyri-real hadisələrə, fantasmaqorik elementlərə sadəcə təxəyyül məhsulu kimi yanaşılırdısa, texnokratik erada gerçəkləşən fantastik proqnozlar insanlara sanki yazılanların nə vaxtsa gerçəkləşə biləcəyi ehtimalının olduğunu təlqin etməyə başladı. Modernizm dövründə başlayaraq bəşəriyyəti bürüyən özgələşmiş insan konsepsiyasının səbəblərdindən biri müharibə və soyqırımlar olduğu halda, digər mühüm səbəb texniki inqilab idi. İnsan əməyinin texnika ilə əvəz olunması, hər sahədə insanın yerini tuta biləcək robotlarən hazırlanması insanların həyatını asanlaşdırmağa xidmət etməklə yanaşı bəşəriyyətdə qorxu da yaradırdı. Texnofob insanlar bu inqilabı rədd edirdilər. Məhz bu səbəbdən həmin dövrdə yazılan elmi fantastik əsərlərin əksəriyyətində texnika və insan toqquşması, insanın texniki tərəqqidən qorxusu, həmçinin Yer kürəsində baş verə biləcək fəlakətlər, insanların soyunun tükənməsi kimi mövzulara yer verilirdi. Zaman keçdikcə texniki tərəqqinin müsbət tərəflərinin olduğuna inam daha da artdı və bu ədəbiyyatda da özünü göstərirdi. Elmi fantastik ədəbiyyatın formalaşmasında mühüm xidmətləri olan Ayzek Azimov da əsərlərində məhz texniki inqilabın tərəfdarı kimi çıxış edir. Yazıçının "Təməlçilər", "Kosmik axınlar" kimi əsərlərində də elmi fantastik ədəbiyyatın əsas elementlərinə rast gəlmək mümkündür. Müxtəlif dövrlərdə yazdığı hekayələri "Mən,Robot" adı altında toplayan müəllifin bu kitabında isə birbaşa insan və texnika probleminə müraciət olunmuşdur.

Təqdim olunan dissertasiyada əsasən Ayzek Azimovun "Mən,robot" kitabındakı kiçik həcmli hekayələrində insan probleminin təhlilinə yer verilmişdir. "Robbi", "Qaçdı-qovdu", "Məntiq", "O dovşanı tut", "Yalançı" və s. hekayələrdə insanın dostu olan, süni

intellektə sahib, hətta zaman-zaman insandan daha ağıllı qərarlar verə bilən robotların təsviri, robototexnikanın üç əsas qanununun robotlarda tətbiqi kimi mövzular işıqlandırılmışdır.

Mövzunun araşdırılması nəticəsində aşağıdakı nəticələr əldə olunmuşdur:

1) Elmi fantastika janrının iqtisadi, siyasi və digər sahələrdə əhəmiyyətli gücə sahib, regional baxımdan əlverişli mövqedə yerləşən, mədəni inkişaf baxımından bir çox Qərb ölkələrindən öndə dayanan, həmçinin Qərb təfəkkürünün əsas meyarı kimi qəbul edilən Amerikada daha çox yazılmasının və oxunmasının səbəbi məhz qeyd olunan nüanslarla əlaqədardır;

2) Ayzek Azimov "Təməlçilər", "Kosmik axınlar", "Marslıların yolu", "Ölü planet", "Zamandan qaçış", "Qızıl qalaktika", "Mən, Robot", "Robotlar və İmperiya", "Günəşin Tanrıları", "Dəmir Mağaralar" kimi əsərləri ilə elmi fantastika janrına mühüm töhfələr vermiş, kosmosa səyahət, qalaktikada həyat, insan və təbiət, insan və texnika, gələcəklə bağlı futuristik ehtimallar kimi mövzuları böyük ustalıqla təsvir və təhlil etmişdir;

3) Yazıçı "Mən, Robot" hekayələr toplusundakı kiçik həcmli nümunələrdə insanların həm insanlarla, həm də robotlarla dostluq münasibətlərini araşdırmış, özgələşmiş fərdlərin texnoerada robotlara münasibəti məsələsinə, cəmiyyət və insan, texnika və insan problemlərinə öz münasibətini ifadə etmişdir;

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:


*Azərbaycan dilində:*

1. Azimov A. Seçilmiş əsərləri. Bakı: Şərq-qərb, 2010, 283 s.
2. Azimov. A., Mən, Robot, Qanun nəşriyyatı, 2018, 287 s.
3. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası, I cild Bakı, “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 400 s.
4. Əzimov A. Seçkilər. Bakı. Ulduz jurnalı, 1980.
5. Soltanova, R. Azərbaycan ədəbiyyatında elmi-fantastik janr: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / - Bakı, 2010. - 28 s.

*Türk dilində:*

6. Badou J., Bilim-Kurgu, çev. İpek Bülbüloğlu, Dost Kitabevi Yayınları, Ankara, 2005.
7. Gibson W. Neuromancer, Çev. Serkül Oğur, Altıkırkbeş Yayınları, İstanbul 2012.
8. Powers T., Anubis Kapıları, Çev. Ardan Tüzünsoy, İthaki Yayınları, İstanbul 2001.

*İngilis dilində:*

9. Arthur C. Clarke, The Collected Stories of Arthur C. Clarke, Gollancz Books, USA 2001.
10. Asimov I., A lifetime of letters. edited by Stanley Asimov, New york: Doubleday, 1995, 334 p.
11. Asimov I., I, Robot, Street and Smith Publications, Inc., 1950, 148 p.
12. Asimov, I. Foundation and Earth. London: Harper Collins, 1996.
13. Brian A. The Penguin science fiction omnibus, Penguin, 1973, 616 p.
14. Broderick D., Boston J., New Worlds: Before the New Wave, 1960-1964: The Carnell Era, Volume Two, Borgo Press, 2013, 396 p.

15.Carl, E. Fiction from the 1920s to the 1960s., The Cambridge Companion to American Science Fiction.

16.Cummins E. Understanding Ursula K. Le Guin, Columbia, S.C.: University of South Carolina Press, USA. 1990.

17.Edmund J. Farrell, Science Fact/Fiction, Foresman&Scott Company, USA 1974.

18.Gernback H. Amazing Stories, Create Space Independent Publishing Platform, 2017, 182 p.

19.Hale E. E., The Brick Moon, The Atlantic Monthly Magazine, USA 1869

20.Henry K. Best of Henry Kuttner W/Introduction By Ray Bradbury, Nelson Doubleday, 1975.

21.Herbert B. Dreamer of The Dune: The Biography of Frenk Herbert, Tor Books, US, 2003.

22.Insko J. Diedrich Knickerbocker, Regular Bred Historian. University of North Carolina Press. Early American Literature Vol. 43, No. 3 (2008), pp. 605-641, s. 620. URL: https://www.jstor.org/stable/27750094

23.Jameson F. The Political Unconscious: Narrative as a Socially Symbolic Act, Cornell University Press, 1982, 305 p.

24.James G. Isaac Asimov: The Foundation of Science Fiction, Oxford University Press, 1982.

25.Martin A. The mask of the Prophet: the extraordınary fictıons of Jules Verne, Oxford University Press, 1990, 240 p.

26.Parrinder P. Science Fiction: Criticism and Teaching, London: New Accents, US. 1980.

27.Patrouch J. F. The Science Fiction of Isaac Asimov. Garden City, NY: Doubleday, 1974.

28.Peake A. A Life of Philip K. Dick: A Man Who Remembered the Future, Arcturus Publishing Limited, USA. 2013.

29. Pohl F. All The Lives He Led, Tom Doherty Associates, USA, 2011.
30. Prickard A. O., Plutarch on the face which appears on the orb of the Moon. – Publisher Book on Demand Ltd. -2013, - 92 p.
31. Roberts A. The history of science fiction. Antony Rowe Ltd, Chippenham and Eastbourne, 2006, 387 p.
32. Roberts A. The Golden Age of Science Fiction 1940-1960, History Of Science Fiction, Palgrave Histories Literature, 2006, 195 p.
33. Roberts A. The Impact of New Wave Science Fiction 1960s–1970s, Palgrave Histories Literature, 2006, 230 p.
34. Russells D. A. Plutarch. - Bristol Classical Press. – 2001, - 190 p.
35. Shippey T. Hard Reading: Learning from Science Fiction, Liverpool University Press, 2016. pp. 144-159.
36. Smyth E. J. Jules Verne: Narratives of Modernity, Liverpool University Press, 2000, 160 p.
37. Sprague L., Lest Darkness Fall, Henry Holt and Company, USA, 1941.
38. Statten V., Zero Hour, Scion PBO, USA, 1953.
39. Suvin D., Metamorphos of Science Fiction: On the Poetics and History Literary Genre On the Poetics and History of a Literary Genre
40. Swift J. Gulliver's Travels. Dover Publications. 1996. 240 p.

*İnternet resursları:*

41. https://www.depauw.edu/sfs/backissues/17/suvin17.htm
42. https://oac.cdlib.org/view?docId=kt609nc030&brand=oac4&doc.view=entire_text
43. https://www.neondystopia.com/tag/lawrence-person/
44. https://www.locusmag.com/2003/Issue09/Sheckley.html
45. https://www.storytel.com/se/sv/books/the-man-who-evolved-154069
46. https://www.goodreads.com/book/show/85434.The_Currents_of_Space

47. https://en.wikipedia.org/wiki/Cassandra_(metaphor)
48. https://www.encyclopedia.com/literature-and-arts/classical-literature-mythology-and-folklore/folklore-and-mythology/cassandra
49. https://www.goodreads.com/book/show/85434.The_Currents_of_Space
50. https://link.springer.com/chapter/10.1057/9780230510357_2
51. https://asimov.fandom.com/wiki/Science_Fiction_A_to_Z
52. https://rezonanss.com/ayzek-azimov-robotexnikanin-qanunlari-1979/
53. https://en.wikipedia.org/wiki/Science_fiction
54. http://webhome.auburn.edu/~vestmon/robotics.html